Xalqın qəzeti!

# Xalq qəzeti

№ 216 (30332) 5 oktyabr 2023-cü il, cümə axşamı

Gündəlik ictimai-siyasi nəşr

1919-cu ildən çıxır | Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti | xalqqəzeti.az

## Günün sözü

**Prezident İlham Əliyev:**

**Azərbaycan müəlliminin, tarixən, xalqımızın intellektual potensialının formalaşdırılmasında böyük xidmətləri vardır. Dilimizin, ədəbiyyatımızın, mədəniyyətimizin və mənəviyyatımızın keşiyində dayanan müəllim daim cəmiyyətimizdə hörmət və ehtiramla əhatə olunmuşdur.**

# Yeniləşən Azərbaycan təhsilinin yeni uğurları




**Dünyada çoxlu əlamətdar günlər, peşə bayramları qeyd olunur. Bunların arasında ən kütləvisi Beynəlxalq Müəllimlər Günüdür. Çünki elə bir yaşayış məntəqəsi, elə bir ev, ailə yoxdur ki, bilavasitə müəllim zəhmətindən bəhrələnməsin. Bu əlamətdar gün UNESCO-nun qərarı ilə 1966-cı ildən ümumbəşəri təqvimə düşüb.**

Ulu öndər Heydər Əliyevin sözləri ilə desək, məhz müəllim doğma yurdumuzu sevməyi, hamının rifahı naminə vicdanla işləməyi müdrikliklə və səbirlə bizə öyrətmiş və öyrədir. Hər birimizin öz müəllimi vardır və biz bütün ömrümüz boyu onun xatirəsini hörmətlə, minnətdarlıqla qəlbimizdə yaşadırıq.

Müəllimləri cəmiyyətin memarları, insanlıq bağının bağbanı da adlandırmaq olar. Onlar sabahın təməlini qoyanlar, şagirdlərinə fəzilətli insan olmağı, insanlıq üçün faydalı işlər görməyi öyrədənlərdir. Buna görə də valideynlər rahatlıqla öz övladlarının təlim-tərbiyəsini müəllimlərə etibar edirlər.

(ardı 9-cu səhifədə)

# Liderlərin Qranada görüşü niyə baş tutmadı?

**Bu gün Azərbaycan Prezidenti İlham Əliyevlə Ermənistanın baş naziri Nikol Paşinyan arasında Avropa İttifaqı Şurasının prezidenti Şarl Mişelin vasitəçiliyi ilə növbəti görüş keçirilməli idi. Ancaq görüş baş tutmadı. Azərbaycan görüşdə Türkiyənin iştirakına israr etdi. Lakin buna imkan verilmədi. Məsələdə Fransa və Almaniyanın xüsusi canfəşanlığı həlledici rol oynadı. Belədə təklif olunan beşli formatda (Ermənistan–Azərbaycan–Fransa–Almaniya–Avropa İttifaqı) anti-Azərbaycan ab-havasının olduğunu görmək çətinlik törətmir. Söhbətimiz bu barədədir. Əlbəttə, digər məqamlara da aydınlıq gətirəcəyik.**



İlk növbədə bildirək ki, Azərbaycan və Ermənistan liderlərinin Avropa Siyasi Birliyinin üçüncü zirvə toplantısı çərçivəsində bir araya gəlməleri lap əvvəldən razılaşdırılmışdı. Daha doğrusu, bu il mayın 14-də onların Brüsseldə Ş.Mişelin vasitəçiliyi ilə keçirilmiş görüşü zamanı. Həmin vaxt Aİ Şurasının Prezidenti payızda Bakı–İrəvan yüksək səviyyəli təmasına dair anons vermişdi.

Yəni, ilk baxışdan Cənubi Qafqaz liderlərinin növbəti raundunun keçiriləcəyini söyləmək mümkün idi. Həm də ona görə mümkün idi ki, sentyabrın 26-da Brüsseldə Azərbaycan Prezidentinin köməkçisi, Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyevlə Ermənistanın təhlükəsizlik şurasının katibi Armen Qriqoryan Ş.Mişelin təşəbbüsü ilə bir araya gəlmiş və həmin təmas zamanı da bir sıra məsələlərlə yanaşı, iki ölkə liderlərinin Qranada sammitində görüşmələri ətrafında müzakirə getmişdi.

(ardı 3-cü səhifədə)



# Fransa Afrikada itirdiklərini Cənubi Qafqazda tapmaq istəyir

Səhifə ⇨ 6

# Gəncəyə raket atılması erməni faşizminin qəddar simasının qanlı təzahürü idi



**Bu günlər İkinci Qarabağ müharibəsində cəbhə xəttindən xeyli uzaqda yerləşən Gəncə şəhərinə Ermənistan tərəfindən raketlər atılması və nəticədə dinc sakinlərin qətlə yetirilməsinin növbəti ildönümü ilə bağlı tədbirlər keçirilir. Döyüş meydanında uduzan, günbəgün ağır itkilər verərək geri çəkilən Ermənistan Azərbaycanın dinc şəhər və kəndlərini ağır silahlarla vurur, sanki qisasını günahsız insanlardan almağa çalışırdı.**

(ardı 6-cı səhifədə)

# Dünya “ikinci Nürnberq”i gözləyir



**Azərbaycan xalqı tarixi günlərini yaşayır. Hazırda üçrəngli bayrağımız Qarabağın hər bucağında dalğalanır. Qondarma “dqr”in keçmiş separatçı rəhbərləri isə Bakıda dindirilir. Bunun ardı gələcək. Hələlik səkkiz separatçı-terrorçu Dövlət Təhlükəsizlik Xidməti tərəfindən saxlanılıb.**

(ardı 5-ci səhifədə)

# Bu gün Türk dünyası böyük bir ailədir



Səhifə ⇨ 5

UNITED STATES AGENCY INTERNATIONAL DEVELOPMENT USAID

USAID FROM THE AMERICAN PEOPLE

# USAİD üçün “qara gün”: saxta demokratlardan “No-War”çularadək

Səhifə ⇨ 4

# "Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə qarşı Mübarizə üzrə Dövlət Komissiyasının yeni tərkibinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 6 avqust tarixli 429 nömrəli Sərəncamında dəyişiklik edilməsi barədə

## *Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Azərbaycan Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Naxçıvan Muxtar Respublikası üzrə baş idarəsinin yaradılması və Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 13 fevral tarixli 593 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti haqqında Əsasnamə"də dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 8 aprel tarixli 2086 nömrəli Fərmanının icrası ilə əlaqədar **qərara alıram:**

"Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə qarşı Mübarizə üzrə Dövlət Komissiyasının yeni tərkibinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 6 avqust tarixli 429 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009, № 8, maddə 637; 2011, № 12, maddə 1161; 2013, № 6, maddə 703, № 9, maddə 1088; 2014, № 4, maddə 404, № 7, maddə 864; 2016, № 4, maddələr 738, 750; 2018, № 1, maddə 99; 2019, № 9, maddə 1487; 2020, № 3, maddə 304; 2023, № 4, maddə 535; Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 18 iyul tarixli 3973 nömrəli Sərəncamı) 1-ci hissəsində "Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti rəisinin birinci müavini" sözləri "Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti rəisinin müavini" sözləri ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 4 oktyabr 2023-cü il**

# Kolonnanın İrəvan iddiaları əsassızdır

**Oktyabrın 3-də Fransanın Avropa və xarici işlər naziri Ketrin Kolonnanın Ermənistana səfəri çərçivəsində mətbuat konfransı zamanı Azərbaycana qarşı səsləndirdiyi əsassız iddiaları qətiyyətlə pisləyir və rədd edirik.**



Bu barədə Xarici İşlər Nazirliyinin Fransanın Avropa və xarici işlər naziri Ketrin Kolonnanın Ermənistanda mətbuat konfransı zamanı səsləndirdiyi iddialara dair şərhində bildirilib.

Qeyd edilib ki, 30 ilə yaxın müddətdə azərbaycanlıların öz doğma torpaqlarından güc yolu ilə kütləvi şəkildə qovulmasına, onlara qarşı müharibə cinayətləri və kütləvi qırğınlar törədilməsinə heç zaman əhəmiyyət verməyən Fransanın indi heç bir əsas olmadan və BMT, Beynəlxalq Qırmızı Xaç Komitəsi, BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığı və digər beynəlxalq təşkilatların səsləndirdiyi mövqeyə tamamilə zidd olaraq bölgədən könüllü əsasda getmiş erməni sakinlərin ərazidən zorla köçkün düşdüyünü iddia etməsi beynəlxalq ictimaiyyəti çaşdırmaq məqsədi daşıyır.

Fransanın Ermənistanı hər vəchlə silahlandırmağa çalışması, onu yenidən təcavüzə və hərbi avantüraya cəlb etməsi qəbuledilməzdir. Fransanın bölgəmizə tarixən müdaxilə etmə cəhdləri kimi, bu səylərin də uğursuzluğa düçar olacağı Fransaya aydın olmalıdır.

Vurğulanıb ki, Fransanın hər zaman Ermənistana dəstək verdiyinin, BMT Təhlükəsizlik Şurasının iclaslarının təşəbbüskarının Fransanın olduğunun bildirilməsi rəsmi Parisin son 30 ilə yaxın dönəmdə səsləndirdiyi bitərəf və neytral vasitəçi iddialarının tamamilə əsassız olduğunu növbəti dəfə sübut edib.

Azərbaycanın həyata keçirdiyi antiterror tədbirlərinin dinc erməni sakinlərə qarşı heç bir təhdid təşkil etmədiyinin həm beynəlxalq təşkilatlar, həm də Ermənistanın baş naziri tərəfindən bəyan edilməsinə baxmayaraq, Fransa nazirinin Azərbaycanın öz suveren ərazilərində atdığı legitim addımı cinayət adlandırması saxtakarlıq olmaqla yanaşı, Parisin bölgədəki səriştəsiz siyasətini iflasa apardığını nümayiş etdirir.

***XQ***

# XİN separatçıların həbsinə etirazı pisləyib

**Azərbaycanın Xarici İşlər Nazirliyi erməni separatçıların həbs edilməsi ilə bağlı Ermənistan XİN-in bəyanatını şərh edib.**

Şərhdə deyilir: "Ermənistan Xarici İşlər Nazirliyinin Ermənistanın Azərbaycana qarşı təcavüzü və işğalı nəticəsində suveren ərazilərimizdə yaratdığı qondarma separatçı rejimin üzvlərinin Azərbaycan tərəfindən həbsinə etiraz olaraq 4 oktyabr tarixində verdiyi bəyanatı qətiyyətlə pisləyirik.

Sözügedən bəyanat Ermənistanın Azərbaycana qarşı onilliklər ərzində yürütdüyü təcavüzkar siyasət və əməllərdən əl çəkmədiyini nümayiş etdirir. Bu bəyanat, həmçinin həbsi həyata keçirilmiş şəxslər tərəfindən törədilmiş əməllərə bəraət qazandırılması cəhdidir.

Azərbaycana qarşı təcavüzdə, separatçılığın təşviq edilməsində, terror əməllərində, əsirlikdə olan hərbi qulluqçular və mülki şəxslərə qarşı sülh və insanlıq əleyhinə, müharibə və digər ağır cinayətlər törədilməsi və digər faktlar üzrə Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin müvafiq maddələri ilə başlanmış cinayət işi çərçivəsində qeyd edilən şəxslərin həbsi ədalətin bərpasına xidmət edir və bu addımların legitimliyinin şübhə altına alınması qəbuledilməzdir.

Qeyd edilənlərlə yanaşı, tərk-silaha razı olan minlərlə Ermənistan hərbçilərinin və qanunsuz hərbi birləşmələrin Azərbaycan tərəfindən humanist addım olaraq sərbəst buraxıldığı və heç bir maneə olmadan Ermənistana getdiyi Ermənistan XİN-nə yaxşı məlumdur və bu xüsusda Ermənistanın apardığı saxta kampaniyanın heç bir əsası yoxdur. Azərbaycanın Qarabağ bölgəsindən könüllü əsasda Ermənistana getmiş erməni sakinlərin öz yaşayış yerlərinə geri qayıtmasını təşviq etmək əvəzinə, onlar arasında təşviş yaratmaq və Azərbaycana qarşı irqi və etnik nifrət aşılamaq məqsədi daşıyan bu bəyanat Ermənistanın sülh səylərinə mane olan destruktiv fəaliyyətinin tərkib hissəsidir.

Ermənistanın Beynəlxalq Ədalət Məhkəməsində düçar olduğu uğursuzluqlara rəğmən, yenə də əsassız olaraq və beynəlxalq hüququn norma və prinsiplərinə zidd şəkildə məhkəmə qarşısında iddialar irəli sürməkdə davam etməsi bu ölkənin Azərbaycanla sülh və normallaşma prosesində maraqlı olmadığını nümayiş etdirir. Ermənistanın bu kimi fəaliyyəti bölgədə sülhün, təhlükəsizliyin və ədalətin bərqərar olmasına əsas təhdid mənbəyidir".

***XQ***

## İcma xəbərləri

### Qərbi azərbaycanlılar niyə yada düşmür?



Qərbi Azərbaycan İcması Avropa İttifaqının Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi Toyvo Klaarın Ermənistan mediasına verdiyi müsahibəsində yer almış qərəzli mövqeyini, xüsusilə Azərbaycanın suveren ərazilərinə "uzunmüddətli çoxmillətli və ya BMT missiyasının yerləşdirilməsi" kimi düşük fikirlərini kəskin şəkildə qınayır.

Bu barədə Qərbi Azərbaycan İcmasının məsələ ilə bağlı yaydığı açıqlamada bildirilir.

Açıqlamada, həmçinin deyilir: "T.Klaar və digər Avropa İttifaqı rəsmilərindən Azərbaycanın suveren əraziləri ilə bağlı gülünc, düşmən açıqlamalar verməməyi tələb edirik. Qoy T.Klaar Avropa İttifaqının təsisatlarına etnik azlıqlarla problemlərin yaşandığı Avropa İttifaqı ölkələrinə və monoetnik Ermənistana uzunmüddətli çoxmillətli və ya BMT missiyasının yerləşdirilməsi barədə tövsiyələr versin.

### Paris İrəvanı revanşizmə sövq edir

Fransanın xarici işlər nazirinin Ermənistana səfəri çərçivəsində verdiyi açıqlamalar, o cümlədən, Ermənistanla hərbi yardım barədə sazişin imzalanması, Avropa İttifaqının missiyasının mandatının gücləndirilməsi barədə fikirləri rəsmi Parisin Cənubi Qafqaz regionuna geosiyasi rəqabət gətirməkdə maraqlı olduğunu, Ermənistanı militarizmə və revanşizmə sövq etdiyini göstərir.

Bu fikirlər Qərbi Azərbaycan İcmasının yaydığı açıqlamada yer alıb.

"İnanırıq ki, Afrikada biabırcasına məğlubiyyətlərə düçar olan Fransanın dini təəssübkeşliyə, azərbaycanofobiyaya və islamofobiyaya əsaslanan Cənubi Qafqaz siyasəti də iflasa uğrayacaq", – deyə bəyanatda vurğulanır.

# Prezidentin Mətbuat Xidmətinin məlumatı

**Oktyabrın 4-də Ukrayna Prezidenti Volodimir Zelenski Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə zəng edib.**

Prezident Volodimir Zelenski Azərbaycanın Ukraynaya göstərdiyi əhəmiyyətli humanitar yardıma, xüsusilə qış şəraitində enerji sektoruna verilən dəstəyə görə təşəkkürünü bildirib.

Telefon söhbəti əsnasında dövlətlərin suverenliyinə və ərazi bütövlüyünə bir daha dəstək ifadə olunub, regional təhlükəsizlik, mövcud təhdidlər və gələcək əməkdaşlıq formatlarına dair fikir mübadiləsi aparılıb.

# Maldiv Respublikasının yeni seçilmiş Prezidenti Zati-aliləri cənab Məhəmməd Muizzuya

**Hörmətli cənab Muizzu,**

Maldiv Respublikasının Prezidenti vəzifəsinə seçilməyiniz münasibətilə Sizi səmimi-qəlbdən təbrik edirəm.

İnanıram ki, birgə səylərimizlə Azərbaycan–Maldiv dostluq əlaqələri daha da inkişaf edəcək, çoxtərəfli təsisatlarda əməkdaşlığımız bundan sonra da davam edəcəkdir.

Sizə ən xoş arzularımı yetirir, dost xalqınızın rifahı naminə qarşıdakı məsul fəaliyyətinizdə müvəffəqiyyətlər diləyirəm.

**Hörmətlə,**

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 4 oktyabr 2023-cü il**

# Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyevə

**Hörmətli cənab Prezident!**

Qarabağda həyata keçirilən antiterror tədbirlərindən sonra təslim olmaq məcburiyyətində qalan qanunsuz separatçı rejim tarix səhnəsindən silindi. Başa çatmış Ermənistan–Azərbaycan münaqişəsi nəticəsində yaşanan ağrı-acılar artıq tam sona yetir. Qarabağda qalmağa razı olan ermənilər rifah dövləti Azərbaycanın vətəndaşları olmağın bütün üstünlüklərindən faydalanacaqlar. Başda erməni diasporu olmaqla radikal ermənilər isə bundan sonra ancaq özlərinə ziyan vuracaqlar.

Cənab Prezident, Qarabağda uzun müddət davam etmiş problemin həlli münasibətilə başda Siz olmaqla bütün Azərbaycan xalqını səmimi-qəlbdən təbrik edirəm. Azərbaycanın bütün ərazilərində, o cümlədən, Qarabağda sülhün və sabitliyin davamlı olmasını arzulayıram.

Sizə cansağlığı diləyir, səmimi ehtiramımı ifadə edirəm.

***Yaşar YAKIŞ,***
***2002-2003-cü illərdə Türkiyənin xarici işlər naziri, Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin üzvü***

# Ermənistan Qarabağda reinteqrasiyaya mane olur

**Dövlət Miqrasiya Xidməti tərəfindən Qarabağ bölgəsində yaşayan erməni sakinlərin Azərbaycan cəmiyyətinə dayanıqlı reinteqrasiyasını təmin etmək məqsədilə reintegration.gov.az portalı istifadəyə verilib. Portaldan Qarabağ bölgəsində yaşayan erməni sakinləri ilə yanaşı, Ermənistan ərazisinə gedən erməni sakinlərinin də istifadəsinə şərait yaradılıb.**

Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidmətindən bildiriblər ki, Ermənistanın bir sıra provayderləri dövlət qurumlarımıza məxsus olan bəzi domen adlarını Ermənistan ərazisindən insanların daxil olmasına maneə olmaq üçün öz tərəfində blokda saxlayırlar.

Dövlət Xidməti tərəfindən aparılan müşahidələr nəticəsində bəlli olmuşdur ki, yeni istifadəyə verilmiş reintegration.gov.az domen adı da Ermənistan ərazisindən insanların daxil olmasına maneə olmaq üçün Ermənistanın provayderləri tərəfindən bağlanıb.

Ermənistan ərazisindən insanların portala daxil olmasını təmin etmək məqsədilə reintegration.gov.az domeninin real IP ünvanı Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidmətinin mütəxəssisləri tərəfindən gizlədilməklə, bloklamadan yayındırılıb və Ermənistan ərazisindən insanların reintegration.gov.az saytına daxil olmasına girişlər bərpa olunub.

Son günlər dövlət qurumlarına məxsus olan saytlara, o cümlədən, reintegration.gov.az portalına istifadəyə verildiyi gündən DDOS və digər kiberhücumlar aktiv şəkildə müşahidə olunur.

Görülmüş qabaqlayıcı tədbirlər nəticəsində "AzStateNet" şəbəkəsinə qoşulmuş bütün informasiya resurslarının etibarlı mühafizəsi və fasiləsiz fəaliyyəti təmin edilir.

***XQ***

# İranın hərbi heyəti Bakıda

**Azərbaycan və Qazaxıstan Hərbi Dəniz Qüvvələrinin gəmilərinin və hərbi qulluqçularının iştirakı ilə ölkəmizdə keçirilən "Xəzri-2023" birgə taktiki təlimində müşahidəçi qismində iştirak etmək üçün İran İslam Respublikasının HDQ-nin nümayəndə heyəti Bakıya gəlib.**



Müdafiə Nazirliyinin mətbuat xidmətindən bildirilib ki, Azərbaycan Respublikası HDQ komandanı vitse-admiral Sübhan Bəkirov İran İslam Respublikasının HDQ-nin Əməliyyat Komandanı 1-ci dərəcəli kapitan Məhəmməd Reza Xəzainin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.

HDQ-nin qərargahında keçirilən görüşdə "Xəzri-2023" təliminin əhəmiyyəti xüsusi vurğulanaraq gələcəkdə Xəzər dənizində Azərbaycan–İran HDQ-nin də birgə təlimlərinin keçirilməsinin vacibliyi diqqətə çatdırılıb və bununla bağlı ilkin razılıq əldə edilib.

Görüşdə hər iki ölkənin HDQ-ləri arasında hərbi sahədə əməkdaşlığın inkişaf perspektivləri müzakirə olunub.

***XQ***

# Liderlərin Qranada görüşü niyə baş tutmadı?



## Bakının Ankara seçimi, Parisin təhriki və İrəvan sülhə qarşı

(əvvəli 1-ci səhifədə)

Lakin Aİ-dən gəlmiş iki gün əvvəlki siqnallar göstərdi ki, dəqiqləşmə yoxdur. Yəni, Ş.Mişelin komandasının səyləri səmərəsiz qaldı. Əlbəttə, belə bir durumun yaşanması yaxşı hal deyil. O anlamda ki, Aİ Şurası Prezidentinin vasitəçiliyinin indiyədək səmərəli alındığını danmaq olmaz. Əlbəttə, üçlü formata Fransanın qoşulmasınadək. Almaniyaya gəldikdə isə onun Fransanın arxasınca süründüyünü söyləmək mümkündür. Yəni, ermənipərəstlik baxımından Parisə çatmasa da, Berlinin də obyektiv münasibət ortaya qoyduğunu söyləmək olmaz. Bilavasitə Aİ-yə gəldikdə, sanki Ş.Mişel ayrıdır, bu qurum ayrı. Sözümüz ondadır ki, təklif olunan beşli formatda Azərbaycan təklənmiş durumda idi. Hesab etsək ki, Fransa son zamanlar ermənipərəstlik rənglərini bir qədər də tündləşdirib, deməli, Qranada görüşündən Cənubi Qafqaz üçün sülh gözləməyə dəyməzdi.

Bəli, rəsmi Paris İrəvanı Azərbaycanın sentyabrın 19-da başlanmış və 23 saat 43 dəqiqə davam etmiş lokal xarakterli antiterror tədbirlərinin şokundan ayıldanaq, özünün destruktiv məcrasına qaytarıb. İndi Ermənistanın qarşısında yeni illüziya perspektivləri var və Paşinyan administrasiyası onları "dəyərləndirməyə" girişib. Müvafiq olaraq, rəsmi İrəvanın siyasətində iki anti-Azərbaycan xətti aydın görünür. Bunlardan birincisi Qarabağ ermənilərini müstəvisində manipulyasiyadır. İkincisi isə Azərbaycanın antiterror tədbirlərini və ölkəmizin Qarabağda suverenliyinin bərpasını işğalçılıq və təcavüz kimi qiymətləndirmək. Üçüncü məqam da var ki, onun üzərinə Qranada Sammitinin nə üçün reallaşmaması kontekstində gələcəyik.

**Birinci məqam.** Məlumdur ki, Qarabağın erməni əhalisinin böləndən Ermənistana köçü baş verdi. Baxmayaraq ki, Azərbaycan dövləti onlara vətəndaşlıq və hüquqlar təklif etmiş, təhlükəsizlikləri ilə ələqədar təminatlar vermişdi. Əlbəttə, kimisə zorla saxlayan deyildik. İndi görürük ki, bu köç Ermənistan hakimiyyətinə bir tərəfdən Azərbaycanı qınamaq və ölkəmizin, guya, etnik təmizləmə apardığını iddia etmək üçün lazım imiş, digər tərəfdən isə köç həm də qazancdır. N.Paşinyan artıq Qarabağdakı humanitar böhranın Ermənistana keçdiyini bildirməyə başlayıb. Bu nə deməkdir? Paşinyan İrəvanda səfərdə olan Fransanın xarici işlər naziri Ketrin Kolonna ilə görüşündə vurğulayıb: "Ancaq, təbii ki, Ermənistan hökumətinin beynəlxalq tərəfdaşlardan birbaşa maliyyə yardımına ehtiyacı var ki, biz də orta və uzunmüddətli humanitar problemləri həll edə bilək".

Bəli, hazırda rəsmi İrəvan Qarabağ ermənilərini ilə bağlı xaricdən xeyli miqdarda vəsait əldə edir və Nikol məbləğin artmasına çalışır. Vəsaitin ikincilərin güzərarını yaxşılaşdırmağa deyil, Paşinyanın hakim komandasının qeyri-leqal təlabatlarının ödənməsinə yönələcəyi şübhəsizdir. Özü də ortada daimi qazanc söhbəti var. Deməli, Paşinyan administrasiyası Qarabağ ermənilərini ayrıca zümrə kimi göstərəcək və maddi dividend əldə edəcək. Nəzərə alaq ki, bunun siyasi dividendi də mövcuddur və gələk bunun üzərinə.

**İkinci məqam.** Bildirdiyimiz kimi, Ermənistan Azərbaycanın suverenliyinin bərpasını Qarabağın işğalı və təcavüz kimi qiymətləndirmək yolu tutur. Sanki Paşinyanın Qarabağ da daxil olmaqla Azərbaycanın ərazi bütövlüyünü tanıması faktı yaddan çıxıb. Bu barədə danışarkən, Ermənistanın xarici siyasət konturları üzərində dayanmağa ehtiyac var. Hazırda mövcud müstəvidəki aktor Fransadır. Paris son zamanlar Ermənistana aktivləşib. Azərbaycanın suverenliyinin tam bərpasından sonra onun daha da azğınlaşdığını deyə bilərik və heç şübhəsiz, bu amil Ermənistanın Azərbaycana münasibətinə təsirsiz ötüşmür. Diqqət edək, iki gün əvvəl İrəvana səfərə gəlmiş Fransanın XİN rəhbəri K.Kolonna açıq şəkildə bildirir ki, Qarabağda baş verənlər beynəlxalq hüququn pozulmasıdır. Deməli, Azərbaycanın suverenliyinin bərpası beynəlxalq hüququn pozulması imiş!

Əlbəttə, xanım Kolonna fikrini Qarabağ ermənilərini kontekstində bildirir və onların ərazidən köçünə fokuslanır. O, göründüyü həyasızlığa baş vuraraq deyir ki, bölgənin erməni sakinləri yaşadıqları yerləri öz xoşları ilə tərk etməyiblər. "Bunlar məcburi gedişlərdir. Bu gedişlərin heç biri könüllü deyildi", – deyən Fransanın XİN rəhbəri Qarabağ ermənilərinin ərazidən, guya, təhdid altında çıxdıqlarını da iddia edib və bildirib ki, bunun əksini söyləmək yalandır.

Fransa riyakarlıq yolunu tutursa, deməli, Ermənistan bu baxımdan daha da irəli getməlidir. Təsəvvür edin, Paşinyan Kolonna ilə görüşündə bildirib ki, Azərbaycan Qarabağda qeyri-qanuni həbslər aparır. Sən demə, separatçı rejimin rəhbərlərinin həbsi qeyri-qanuni imiş! Bundan böyük oyunbazlıq ola bilməz. Əlbəttə, Ermənistanın Avropa İttifaqındakı nümayəndəsi Tiqran Balayan "Azərbaycan Qarabağı işğal edib" deyərək, vay-şivən qoparıb buna görə Bakıya sanksiyaların tətbiqinin zəruriliyindən danışırsa, Nikolun Fransanın XİN rəhbəri ilə görüşdə söylədikləri gözləniləndir .

Ancaq bütün bunlara adi məsələ kimi yanaşmaq olmaz. Ona görə ki, birincisi, erməni siyasilər bildirirlər ki, guya, Azərbaycan Ermənistan ərazisinə hücum edəcək. Ölkə parlamentinin spikeri Alen Simonyanın bununla bağlı açıqlaması var. Etnik təmizləmə sərsəmləməsi isə əslində, durumu gərginləşdirmək üçün seçilmiş xəttdir və heç şübhəsiz, həmin iddianı inkişaf etdirmək məramına hesablanıb. Müvafiq olaraq Ermənistanın təhlükəsizliyi məsələsi qabardılır. Üstəlik, Azərbaycanla bağlı təhrik və təxribat ssenarisinin işə düşdüyü aşkardır. Məsələn, Kəlbəcər istiqamətində ölkəmizin hərbi qulluqçusu snayper atəşi ilə şəhid edilir. Eyni zamanda, Qarabağın küncündə-bucağında gizlənmiş separatçı tör-töküntülərin silahlarını işə saldıqlarına dair məlumatlar var. Hələ hansısa terrorçu qruplaşmanın Azərbaycana qarşı partizan müharibəsi aparacağı bildirilir. Bütün bunlar İrəvanda hazırlanmış planın tərkib hissəsidir. Məqsəd aydındır – Azərbaycan torpaqlarını yenidən işğal etmək.

Əslində, İrəvanın işğalçılıq niyyəti Ermənistanın təhlükəsizliyinin qorunması məntiqi ilə maskalanmış durumdadır. Maskalayanlardan biri də Fransadır. Diqqət yetirək, K.Kolonna keçirdiyi mətbuat konfransında bildirir ki, Fransa Ermənistanla müqavilə imzalamağa razı oldu və bunun sayəsində Paris İrəvanı hərbi texnika ilə təmin edə biləcək: "Fransa Ermənistan və Fransa arasında sazişin imzalanmasına razılıq verib. Sənədə əsasən Paris ölkənin müdafiəsini təmin etmək üçün Ermənistana hərbi texnika verə biləcək".

**Üçüncü məqam.** Bütün bunlara görə Aİ Şurasının prezidenti Ş.Mişelin komandasının nəyə görə Qranadada Azərbaycan və Ermənistan liderlərinin əvvəlcədən elan edilmiş bugünkü görüşünün təşkili məsələsində çətinə düşdüyünü söyləmək mümkündür. Əvvəldə də bildirdiyimiz kimi, İrəvan antiterror tədbirlərinin şokundan ayılıb və yeni illüziya perspektivə doğru irəliləməkdədir.

Azərbaycanın Qranadadakı beşli masanın Türkiyənin iştirakı ilə altılı masaya çevrilməsini istədiyini nəzərə alsaq, deməli, Qərb Ankaranın Cənubi Qafqazdakı sabitləşdirici roluna əhəmiyyətsiz yanaşır. Halbuki, belə olmamalı idi. Ən azından Türkiyə ilə normallaşma xəttini götürdüyünü bəyan edən Paşinyan administrasiyasını bunu etməsi düzgün deyildi.

Elə bundan da görünür ki, indiki məqamda Nikola bölgədə sülh yox, gərginlik sərfəlidir. Və o da görünür ki, erməni baş nazirə Qarabağ kartını diri saxlamaq lazımdır. Paşinyan bu yolla Qərbə Rusiya ilə mübarizə apardığını göstərmək istəyir. Elə Qərbə, daha doğrusu, Fransaya Nikol məhz Kremlə qarşı durmaq üçün lazımdır. İndi tam aydın bilindi ki, nə üçün Fransanın XİN rəhbəri K.Kolonna Qarabağda etnik təmizləmə cəfəngiyyatı barədə danışarkən Rusiyanın da adını çəkmişdi və bildirmişdi ki, ölkəsi Azərbaycan və Rusiyanın belə bir halın yaşanmadığına dair bəyanatlarına inanmır.

Deməli, Bakı ilə Moskvanı eyni müstəvidə tutmaq istəkləri var. Heç şübhəsiz, bu yanaşma dünya ictimaiyyətinin Ukrayna müharibəsi səbəbindən Rusiyaya olan hiddətini Azərbaycan üzərinə də transformasiya etmək məqsədi daşıyır. Bir daha nəticəyə gəlmək mümkündür ki, beşli masa ölkəmiz üçün sərfəli deyildi. Belə bir durumda Azərbaycanın Türkiyəni seçməsində isə böyük məntiq var. Sual yaranır: Necə olur ki, bütün dünya taxıl məsələsində Ankaranı Moskvaya elçi qismində getməsini istəyir, ancaq Qarabağla bağlı onun barışdırıcı missiyasına razı deyil? Deməli ki, Bakının gedişi həm də razılaşmayanların çevrəsini lokallaşdırmaq niyyətidir və kifayət qədər tutarlıdır. Azərbaycan sübut edir ki, Almaniya və Fransanın dünyaya dəxli yoxdur və onların beynəlxalq ictimaiyyət üçün vacib nöqtələrdən sayılan Cənubi Qafqaz coğrafiyasında söz sahibliyinə girişməsi uğursuzdur. Uğursuzluğu şərtləndirən isə ədalətsizlikdir. Həqiqətən də beynəlxalq hüquqa heçə sayıb Azərbaycanın öz suverenliyini bərpa etməsini az qala işğal kimi görən Parisdən nə gözləyəsən? Eləcə də onun sözü ilə oturub duran Almaniyadan və indiki durumda mövqesizlik göstərən Aİ-dən.

Əlbəttə, Ermənistan hakimiyyətinə Qarabağ kartını diri saxlamaq, həm də yuxarıda da vurğuladığımız kimi, Azərbaycana qarşı ərazi iddiası məsələsini gündəmdən düşməyə qoymamaq üçün vacibdir. Bu baxış sülhə qarşıdır. Qranada görüşü isə mahiyyətcə Cənubi Qafqazda sülh üçün, belə demək mümkünsə, müjdə anonsu kimi qiymətləndirilirdi. Göründüyü kimi, anons verilmədi. Bundan sonra nələr yaşanacaq, onu zaman göstərəcək.

**Əvəz CAHANGİROĞLU**
**XQ**

# Kolonna təsdiqlədi: Fransa bölgədə pozuculuqdan əl çəkməyəcək

## Unudurlar ki, bu siyasət, ilk növbədə, Ermənistana ziyandır

**(əvvəli 1-ci səhifədə)**

Belə təzyiq edənlərdən, hədə-qorxu gələnlərdən, müxtəlif beynəlxalq təşkilatlarda çeşidli fitnələr ortaya atanlardan biri də məhz Fransa və onun XİN başçısı idi. Kolonna avqustun 28-də İrəvanda "Laçın" sərhəd nəzarət-buraxılış məntəqəsinin yaradılmasını nəzərdə tutaraq, Azərbaycanın atdığı birtərəfli addımların (?) qəbuledilməz olduğunu bildirmişdi: "Ərazi bütövlüyünə hörmət hər hansı güc tədbirindən imtina etmək deməkdir. Mən bunu Bakıda da dedim. Biz Azərbaycan qüvvələrinin bir ölkənin ərazi bütövlüyünə hörmətsizlik edərək irəliləməsini qınamaqla işimizi bitmiş hesab edə bilmərik. Beynəlxalq hüquqa hörmət edilməlidir və bu, hər iki tərəfin irəli getməsinin yeganə yoludur".

K.Kolonna onu da qeyd etmişdi ki, Laçın yolunda sərhəd nəzarət-buraxılış məntəqəsinin yaradılması Bakı ilə İrəvan arasında razılaşmalara ziddir. Onun hansı razılaşmaları nəzərdə tutduğu və ziddiyyətin nədən ibarət olduğu isə müəmmalı qalmışdı.

Ermənistan – Azərbaycan münasibətlərinə belə bir yanaşma sərgiləyən həmin şəxs qeyd etdiyimiz kimi yenidən İrəvana gəlib. Azərbaycanın ərazi bütövlüyünü, dövlət suverenliyini tam bərpa etməsi, Qarabağdan erməni əhalinin könüllü şəkildə çıxıb getməsi, qondarma rejimə rəhbərlik edənlərin, hərbi cinayətlər işlətməkdə ittiham olunanların həbsi fonunda Kolonnanın erməniperəst açıqlamalarının, necə deyərlər, dozasının daha çox olacağı gözlənilən idi. Belə də olub. O, bu dəfə öz bəyanatlarında bir qədər də irəli gedib. K.Kolonna Ermənistan xarici işlər naziri Ararat Mirzoyanla birgə keçirdiyi mətbuat konfransında deyib: "Ermənistana səfərimlə göstərmək istəyirəm ki, Fransa dost ölkəmizin ərazi bütövlüyünə və digər istənilən təhdidlərə qarşı çox diqqətli olacaq. Fransa rəsmi İrəvanla gələcəkdə Ermənistana müdafiə ehtiyaclarını təmin etmək üçün hərbi texnika tədarük etməyə imkan verəcək müqavilə imzalamağa razılıq verib. Mən Avropa İttifaqının buradakı müşahidə missiyasının genişləndirilməsi, onun mandatının artırılması və Ermənistanın Moldovaya bənzər "Avropa sülh mexanizmi"nə daxil edilməsi xahişi ilə Cozep Borrelə (Aİ-nin Xarici işlər




və təhlükəsizlik siyasəti üzrə ali nümayəndəsi) rəsmi müraciət etdim. Məqsədimiz odur ki, Aİ-yə üzv dövlətlər Ermənistanın ərazi bütövlüyü ilə bağlı aydın siqnallar göstərsinlər. Bu da Ermənistanın ərazi bütövlüyünü təhdid edən istənilən hərəkətin çox sərt cavab alacağı fonunda təzahür etməlidir".

Bundan başqa, K.Kolonna deyib ki, Fransa Ermənistana fransız silahlarının tədarükünə başlamaq imkanı verəcək hərbi-texniki əməkdaşlıq haqqında saziş imzalamağa da rəsmi razılıq verib.

Fransız nazir qeyd edib ki, Qarabağ sakinlərinin öz evlərini könüllü tərk etdiyi iddia edilir, amma bu yalandır, köç məcburiyyətdən olub. "Bu, güc təhdidi altında olub seçim idi", – deyə Kolonna özü yalan danışıb.

Bütün bunlarla yanaşı, diplomat Ermənistan – Rusiya münasibətlərinin gərginləşməsi fonunda İrəvandan Moskvanın, necə deyərlər, bostanına daş atmağı da yaddan çıxarmayıb. Deyib ki, Rusiya üçtərəfli Bəyanatla üzərinə götürdüyü öhdəliklərini yerinə yetirməyib: "Rusiya Federasiyası Ermənistanla Azərbaycan arasında münasibətlərin siyasi tənzimlənməsi üçün alətlər təqdim etməli idi. Bu onun öhdəliyi idi, yerinə yetirmədi".

Həmçinin, nazir Ermənistan parlamentinin ölkənin Beynəlxalq Cinayət Məhkəməsinin Roma statutunu ratifikasiya etməsini alqışlayıb. Deyib ki, bu addım Ermənistanı qətiyyətlə demokratiya və sülhə doğru aparır. "Fransa Ermənistanın dostu olmaqdan, eləcə də Ermənistana və ermənilərə uzunmüddətli dəstək göstərməkdən qürur duyur", – deyə Kolonna qeyd edib.

Fransa baş diplomatının İrəvana Kiyevdən gəlməsi də diqqətdən yayınmır. İrəvanda olarkən K.Kolonna ABŞ Prezidenti Co Baydenlə Ukraynanı dəstəkləyən ölkə və təşkilatların liderlərinin telekonfransında da iştirak edib. "Frans-Press" agentliyi diplomatik mənbəyə istinadən məlumat yayıb ki, Kolonna telekonfransda Amerika liderindən Ermənistanın gücləndirilməsi zərurətinə də diqqət yetirməyi xahiş edib. O, rəsmi İrəvanın Rusiyanın təzyiqi, Ermənistanın ərazi bütövlüyünün isə mübahisəli və ya təhdid altında olduğunu iddia edib. Mənbə agentliyə bildirib ki, Kolonna Ukraynada yaşananlarla yanaşı, Qafqazda baş verənləri də nəzərə almağa çağırıb.

Onu da bildirək ki, telekonfransda ABŞ dövlət başçısı ilə yanaşı Avropa Komissiyasının sədri, Aİ Şurasının prezidenti, NATO-nun Baş katibi, Kanada, Yaponiya, İtaliya, Böyük Britaniyanın baş nazirləri, Almaniya Kansleri, Polşa və Rumıniya prezidentləri də iştirak ediblər.

***

Fransalı nazirin İrəvanda səsləndirdiyi iddiaları Azərbaycan Xarici İşlər Nazirliyi də şərh edib. XİN K.Kolonnanın Ermənistana səfəri çərçivəsində mətbuat konfransı zamanı Azərbaycana qarşı səsləndirdiyi əsassız iddiaları qətiyyətlə pisləyib və rədd edib. XİN-in şərhində deyilib: "30 ilə yaxın müddətdə azərbaycanlıların öz doğma torpaqlarından güc yolu ilə kütləvi şəkildə qovulmasına, onlara qarşı müharibə cinayətləri və kütləvi qırğınlar törədilməsinə heç zaman əhəmiyyət verməyən Fransanın, indi heç bir əsas olmadan və BMT, Beynəlxalq Qızıl Xaç Komitəsi, BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığı və digər beynəlxalq təşkilatların səsləndirdiyi mövqeyə tamamilə zidd olaraq bölgədən könüllü əsasda getmiş erməni sakinlərin ərazidən zorla köçkün düşdüyünü iddia etməsi beynəlxalq ictimaiyyəti çaşdırmaq məqsədi daşıyır. Fransanın Ermənistanı hər vəchlə silahlandırmağa çalışması, onu yenidən təcavüzə və hərbi avantüraya cəlb etməsi qəbuledilməzdir. Fransanın bölgəmizə tarixən müdaxilə etmə cəhdləri kimi, bu səylərin də uğursuzluğa düçar olacağı Fransaya aydın olmalıdır.

Bu xüsusda, Ermənistanın beynəlxalq hüququn bütün norma və prinsiplərini, eləcə də əldə edilmiş razılıqlar çərçivəsində öhdəliklərini kobud şəkildə pozaraq Azərbaycanın ərazilərinin 20 faizə yaxın hissəsini işğal altında saxlamasına, 44 günlük Vətən müharibəsindən sonra ərazi bütövlüyü və suverenliyinə qarşı hərbi-siyasi təxribatlarını davam etdirməsinə, Azərbaycan tərəfindən həyata keçirilmiş anti-terror tədbirlərinə qədər ərazilərimizdən hələ də öz silahlı qüvvələrini tam olaraq çıxarmamasına Fransanın göz yummasının sülh prosesinə manea və bölgədə əsl təhdid olmasına diqqət çəkmək istərdik. Fransanın hər zaman Ermənistana dəstək verdiyinin, BMT Təhlükəsizlik Şurasının iclaslarının təşəbbüskarının Parisin olduğunun bildirilməsi bu ölkənin son 30 ilə yaxın dönəmdə səsləndirdiyi bitərəf və neytral vasitəçi iddialarının tamamilə əsassız olduğunu növbəti dəfə sübut edib".

Onu da qeyd edək ki, əgər Paris Ermənistanın silahlandırılmasını indiyədək gah üstüörtülü formada (məsələn, humanitar yardım adı altında), gah da üçüncü tərəfin (məsələn, Hindistanın) vasitəsilə həyata keçirirdisə, artıq bu proses rəsmi şəkil alacaq. K.Kolonnanın mətbuat konfransındakı açıqlamaları bunu deməyə əsas verir. Fransalı nazirin İrəvandakı sözlərindən o da aydın olur ki, "Beşinci Respublika" regionda pozuculuq siyasətindən əl çəkmək niyyətində deyil. Ancaq Parisdə unudurlar ki, bu siyasət ilk növbədə Ermənistana ziyandır. Çünki Azərbaycanla Ermənistanın münasibətlərinin yaxşılaşmasından, sülh müqaviləsinin imzalanmasından, kommunikasiyaların açılmasından daha çox faydalanan məhz İrəvan olacaq.

Bundan əlavə, Azərbaycan da necə deyərlər, yerində saymır. Ordumuzun maddi-texniki bazası, müasir silahlarla təchiz olunması, şəxsi heyətinin hazırlıq səviyyəsi durmadan artırılır. Prezident İlham Əliyev iyulun 21-də "4-cü Sənaye İnqilabı dövründə Yeni Media" mövzusunda Şuşa Qlobal Media Forumunun açılış mərasimində çıxışında siyasi uzaqgörənliklə sanki bu gün baş verən prosesləri müşahidə edərək deyib: "Biz unutmamalıyıq ki, İkinci Qarabağ müharibəsinin nəticələrinə baxmayaraq, bu gün Ermənistan cəmiyyətinin, hətta hökumətinin tərkibində müəyyən insanlar var ki, hələ də revanşist ideyalarla yaşayır və onlar bunu gizlətmirlər. Ona görə biz hər bir ssenariyə hazır olmalıyıq. Bu məqsədlə biz İkinci Qarabağ müharibəsi bitən kimi, möhtəşəm Zəfərimizi nümayiş etdirən kimi dərhal yenidən müdafiə sahəsində dərin islahatlar həyata keçirməyə başlamışıq. Mən artıq bunu ictimai şəkildə bəyan etmişəm. Bu gün ordumuz üç il əvvəlki ordudan daha güclüdür. Buna, əlbəttə ki, ehtiyac var".

**Səxavət HƏMİD**
**XQ**

### EKSPERT RƏYİ



***Zaur MƏMMƏDOV,***
***Dövlət İdarəçilik Akademiyasının müşaviri, politoloq***

***– Fransa xarici işlər nazirinin İrəvanda səsləndirdiyi fikirlər tamamilə qəbuledilməzdir. Onun dediyi sözlər, eyni zamanda, anlaşılmazdır. Məsələn, o qeyd edib ki, Fransa Ermənistanın ərazi bütövlüyünün sonadək müdafiə edəcək. Azərbaycanın, guya, ermənilərə münasibətdə apardığı diskriminasiya və etnik təmizləmə siyasətini qəbul etməyəcək. Məgər Azərbaycan Ermənistanın ərazi bütövlüyünə təhdid yaradır? Azərbaycanın diskriminasiya və etnik təmizləmə siyasəti apardığını BMT missiyası da təsdiqləyib.***

***Fransa artıq öz tərəfini seçib. Fransız rəsmilər Qarabağdakı separatçıların başçılarını da belə müdafiə edirdilər. Bu gün isə onlar Bakıda həbsdədirlər. Azərbaycan Parisin etirazına baxmayaraq, 44 günlük müharibə apararaq, öz məqsədinə çatdı, antiterror tədbirlərini həyata keçirərək suverenliyini bərpa etdi. Bu mənada fransız rəsmilərin verdikləri bəyanatlar, əslində, onların nüfuzdan düşməsinə gətirib çıxarır. Eyni zamanda, biz burada Fransanın Rusiya ilə qarşıdurma əsnasında Paşinyanla birgə Cənubi Qafqazda aranı qarışdırdığını da görmüş oluruq.***

# USAİD üçün “qara gün”: saxta demokratlardan “No-War”çularadək

### *Yaxud ABŞ Beynəlxalq İnkişaf Agentliyinin “rəngli inqilab” planlarına sözardı*

**Qərbin, o cümlədən ABŞ-ın dünyanın müxtəlif bölgələrində inqilablar gerçəkləşdirməsi təcrübəsi çağdaş dünyamızın acı reallığıdır. Bu reallıq insan hüquqlarının, söz və ifadə azadlığının müdafiəsi qiyafəsinə bürünərək, müstəqil dövlətlərin daxili işlərinə qarışmaq niyyətinin gerçəkləşdirilməsini rəhbər tutur. Hazırda Gürcüstanda baş verən proseslər isə mövzu barədə söz açmaq üçün ciddi əsas yaradır. Elə isə qonşu ölkədə nələrin yaşandığına diqqət yetirməklə mövzumuza keçid alaq.**

**Sual olunur:** Gürcüstan parlamentinin sədri Şalva Papuaşvilinin “qara gün” məntiqi nədən irəli gəlib? Hər halda, cənab Papuaşvilinin söylədikləri, kifayət qədər, incə məqamların vurğulanmasıdır. Məsələn, o deyir ki, USAID, yəni ABŞ Beynəlxalq İnkişaf Agentliyi nəyə görə Amerika xalqının pullarının başqa ölkədə iğtişaşları yaratmaq, zorakı qruplar hazırlamaq üçün getdiyinə izahat gətirməlidir. Yəni, spiker izahatın olmamasını “qara gün” adlandırır. Ancaq məsələ ondadır ki, Amerikada belə günlərə öyrəncəlidirlər. Ola bilər, Şalva Papuaşvilinin söylədiklərinə heç əhəmiyyət də vermirlər.

Göründüyü kimi, Gürcüstan parlamenti sədrinin iddiası ciddidir. Daha ciddi olan onun bu fikirlərindən sonra ölkənin Dövlət Təhlükəsizliyi Xidmətinin fəaliyyətə keçməsidir. Xidmət bəyan edib ki, USAID proqramı çərçivəsində Şərq-Qərb İdarəetmə İnstitutunun dəvəti ilə Serbiyanın CANVAS (Tətbiqi Qeyri-zorakı Fəaliyyət və Strategiyalar Mərkəzi) qeyri-hökumət təşkilatının nümayəndələri Gürcüstana gələrək, hökumətin devrilməsi prosesində həlledici rol oynayacaq mülki fəallar üçün təlim keçiblər. Dövlət qurumu konkret sübutlar da təqdim edib ki, həmin sübutların, eləcə də ayrı-ayrı detalların üzərində dayanmağa ehtiyac duymuruq. Başlıca məqam Gürcüstana təlim keçmək üçün gələn şəxslərin 2003-cü ildə ölkədə baş vermiş inqilabi hadisələrlə əlaqəli olmalarının vurğulanmasıdır. Daha vacibi isə onların müxtəlif illərdə Serbiyada, Ukraynada və digər ölkələrdə analoji proseslərlə bağlılıqlarıdır. Deməli, indiki durumda CANVAS təşkilatı Serbiyadakı inqilabçı “Otpor”un, Gürcüstandakı “Kmara”nın oxşarıdır. Yeri gəlmişkən, bildirək ki, Gürcüstan DTX iki həftə əvvəl də bildirmişdi ki, ölkədə qarşıdakı müddətdə, konkret olaraq oktyabr-dekabr aylarında hakimiyyət dəyişikliyi planlaşdırılır və nəzərdə tutulanların, eyni zamanda zorakı üsullarla həyata keçirilməsinə hazırlıq gedir.

***

Əlbəttə, Gürcüstanda yaşananlar aysberqin görünən tərəfidir. Əvvəldə də vurğuladığımız kimi, Birləşmiş Ştatların müxtəlif təşkilatlar vasitəsilə müstəqil ölkələrin daxili işlərinə qarışmasına, eləcə də siyasi proseslərə müdaxiləsinə dair nümunələr az deyil. Ancaq indi Gürcüstan müstəvisində yaşananlar onu göstərir ki, ABŞ özünün keçmişdəki ampluasına sadiqdir.

Bəli, USAİD-in adı həmişə siyasi proseslərə açıq müdaxilə, hakimiyyət çevrilişlərinə cəhd və sair bu sayaq məsələlərdə hallanıb. Təşkilatın 2023-2025-ci illərdə müxtəlif ölkələrdə “vətəndaş cəmiyyəti” quruculuğuna 10 milyard dollara yaxın vəsait ayırdığı məlumdur. Bu yerdə onun ABŞ Mərkəzi Kəşfiyyat İdarəsinin alt qolu kimi yaradıldığını da vurğulamaq yerinə düşər.

***

Azərbaycana gəldikdə, bildirək ki, ümumən USAİD, NED, həmçinin Fridrix Nauman, Marşall fondları, İREX və digər bu kimi qurumlar ölkəmizdə siyasi hakimiyyətə qarşı təzyiq vasitəsi kimi istifadə məqsədilə öz şəbəkələrini formalaşdırmağa çalışıblar. Yəni, bu gün Gürcüstanın üzləşdiyi problemlər bizə yad deyil. Ancaq onların ölkəmizdəki “işləri” heç də rəvan getməyib. Qətiyyətlə söyləmək mümkündür ki, Azərbaycan Qərbin bir çox destruktiv institutlarının “planlarının” boşa çıxdığı ölkədir və bunun səbəbi həm xalq – hakimiyyət vəhdətinin mövcudluğunda, həm də idarəçilik sisteminin çevikliyindədir. Təbii ki, ilk növbədə, birinci amili vurğulamaq lazımdır.

Bəli, bir qayda olaraq, rəngli inqilablar ssenarisi xalq – iqtidar vəhdətinin zəif, xüsusən sosial təminatların aşağı olduğu yerlərdə gerçəkləşməkdədir. Əlbəttə, Liviyada Qəzzafi hakimiyyətinin devrilməsi ilə müşayiət edilən hadisələrə nəzərən, bunun əksinin yaşandığı halların mövcudluğunu da deyə bilərik. Hesab edirik ki, bu zaman vurğuladığımız ikinci amilin aktuallığı meydana çıxır. Yəni, idarəçilikdə səriştənin çatışmazlığı, monolitliyin olmaması, istər-istəməz, boşluqlar yaradır...

***

USAİD-dən danışırıqsa, bu qurum Azərbaycanda 1991-ci ildən fəaliyyətdədir və demək olmaz ki, qarşıdurma və gərginlik yaratmağa cəhd göstərməyib. Onun gerçəkləşdirdiyi layihələr pafoslu təqdimatlarında göstərildiyi kimi, heç də vətəndaş cəmiyyətinin inkişafına töhfə verməyib. Yəni, qurumun faydalı məramı istisnadır. Əksinə, müxtəlif təşəbbüslərini təhlil edərkən belə qənaət formalaşıb ki, USAİD-in layihələrinin leytmotivini siyasi proseslərə müdaxilə, qarşıqlıq yaratmaq, manipulyasiya etmək təşkil edib.

Manipulyasiyadan söz düşmüşkən, Qərb institutlarının bu baxımdan daha çox üstünlük verdikləri sahə mediadır. Onların məhz media müstəvisində hərəkətə keçərək, söz və ifadə azadlıqlarından sui-istifadə yolu tutduqları aşkardır. Nəticə etibarilə müxtəlif dövrlərdə sahəyə aidiyyəti olmayan şəxslərin cəmiyyətə peşəkar jurnalist adı ilə sırındığı məlumdur. Halbuki, həmin şəxslərin qələmə aldıqları, fakt adı ilə çəkib göstərdikləri, böyük ölçüdə, şər və böhtandan, şəxsi həyata müdaxilə hallarından başqa heç nə olmayıb.

...Belələrinin jurnalist araşdırması şəklində ortaya qoyduqları məhsulların, əslində, lokal mənafelərin icrasına hesablandığı aşkar həqiqətdir. Hər halda, onlar özlərinə yatırılan sərmayəni doğrultmağa çalışıblar. Sərmayəyə gəldikdə, deyək ki, 2014-cü ildə USAID Azərbaycanda “müstəqil medianın inkişafı” üçün 2,4 milyon dollar məbləğində vəsait ayırmışdı. Onu da bildirək ki, bu vəsait qrant şəklində idi. Qrant müsabiqəsi isə qısa zamanda, qeyri-şəffaf formada keçirilmiş, müsabiqəyə qurumun ölkəmizdəki “rezidentlərinin” münasib bildiyi media orqanları buraxılmışdı. Əlbəttə, USAİD-in elə tələbləri var ki, onları yerinə yetirmək üçün gərək “inanılmış” şəxslər müəyyənləşsin. Hər adama maliyyəni etibar etmək mümkün deyil. Amerikalılar belə düşünürlər və bu zaman qrant monopoliyasına ehtiyac duyulur. Deməli, media və QHT şəbəkəsi formalaşdırmaq zərurəti meydana çıxıb.

Şəbəkəni isə USAİD-lə yanaşı, ABŞ Milli Demokratiya İstitutu (NDİ) adlandırılan qurum da reallaşdırıb. Yeri gəlmişkən, adını sonuncu çəkdiyimiz təşkilatın Bakıdakı nümayəndəliyinin keçmiş rəhbəri Aleks Qriqoryevsinin öz bank hesabından 2 milyon dollara yaxın vəsaiti çıxarıb bəzi QHT-lərə, konkret şəxslərə paylaması faktdır. Axı, şəbəkə üzvlərinin “yemlənməsi” mütləqdir.

Söhbət ki, “yemlənmədən” düşdü, bir məqamı xüsusi vurğulamağa ehtiyac var. USAİD vaxtilə Azərbaycanda işlədiyi təşkilat və hərəkatlara maliyyəni məhz Gürcüstan üzərindən ötürüb. Deməli, gərək bu ölkənin hökuməti belə yarıtmaz halları zamanında diqqətdə saxlayaydı. İndi çanax onun öz başında çatlamaqdadır.

***

Qeyd etdiyimiz kimi, Azərbaycanda xalq – hakimiyyət vəhdəti USAİD və onun kimi təşkilatların qol-qanad açmalarına imkan tanımır. Nəzərə alaq ki, 44 günlük müharibədən sonra bu vəhdət daha da güclüdür. Deməli, belə qurumların cəmiyyətə təsir imkanları, ayrı-ayrı təbəqələri ələ almaq, kimlərisə vasitəyə çevirmək şansları azdır. Ancaq onlar “fəaliyyətlərinə” ara vermirlər. Maraqlı cəhət isə odur ki, bu direniş əzmi getdikcə primitiv xarakter almaqdadır. Məsələn, indi USAİD-çilər “No-War”-çular deyilən lokal qrupu dövriyyəyə salaraq, Azərbaycan cəmiyyətində müharibə əleyhinə çağırışlar səsləndirirlər. Əlbəttə, heç bir xalq, o cümlədən Azərbaycan xalqı müharibə arzulamır. Ancaq, bu, heç də o demək deyil ki, ölkəmiz öz haqları uğrunda mübarizə aparmamalıdır. USAİD-in “No-War”çularına qalsa, gərək Vətən müharibəsi ilə ərazi bütövlüyümüzü, antiterror tədbirləri ilə suverenliyimizi bərpa etməməli idik. Yəni, onların təbliğatları buna söykənib. Bunun isə həm də erməni dəyirmanına su tökmək olduğunu hər birimiz çox yaxşı dərk edirik.

Ümumən, cəmiyyətimiz USAİD və digər təşkilatların Azərbaycana hansı təlimatlarla gəldiklərini gözəl bilirik. Bu bilgi isə kifayət qədər, ciddi immunitet və əminlikdir. Əminik ki, Azərbaycanda heç bir anti-milli resursların işə düşməsi, mövcud sahədə möhtəkərlik istəkləri reallıqla səsləşməyəcəkdir.

**R.ƏVƏZ**
**XQ**

# Xoşbəxt Bağı oğlu Yusifzadə



**Azərbaycan ictimaiyyətinə ağır itki üz vermişdir. Görkəmli neftçi-alim və geoloq, Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin birinci vitse-prezidenti, respublika dövlət mükafatları və Heydər Əliyev Mükafatı laureatı, geologiya-mineralogiya elmləri doktoru, professor, Azərbaycan Milli Elmlər Akademiyasının həqiqi üzvü Xoşbəxt Bağı oğlu Yusifzadə 2023-cü il oktyabrın 3-də ömrünün 94-cü ilində vəfat etmişdir.**

Xoşbəxt Yusifzadə 1930-cu il yanvarın 14-də Bakı şəhərinin Pirşağı kəndində anadan olmuşdur. Orta məktəbi bitirdikdən sonra o, 1947–1952-ci illərdə indiki Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin neft və qaz yataqlarının geologiyası və kəşfiyyatı fakültəsində dağ mühəndisi-geoloq ixtisası üzrə ali təhsil almışdır.

Xoşbəxt Yusifzadə 1960-cı ildə geologiya-mineralogiya elmləri üzrə namizədlik, 1987-ci ildə doktorluq dissertasiyaları müdafiə etmiş, 2005-ci ildə professor elmi adını almış, 2007-ci ildə isə Azərbaycan Milli Elmlər Akademiyasının həqiqi üzvü seçilmişdir.

Əmək fəaliyyətinə 1952-ci ildə SSRİ Neft Sənayesi Nazirliyinin Layihə İnstitutunun Bakı filialında mühəndis-geoloq kimi başlayan Xoşbəxt Yusifzadə 1954-cü ilədək “Dənizneft” Birliyində geoloji şöbə rəisinin müavini və “Azneft” İstehsalat Birliyində böyük geoloq, 1954–1963-cü illərdə indiki “Neft Daşları” Neft və Qazçıxarma İdarəsində böyük geoloq, baş geoloq və rəis vəzifələrində işləmiş, 1963–1970-ci illərdə “Başdənizneft” İdarəsində şöbə rəisi, 1970–1992-ci illərdə isə “Xəzərdənizneft” Birliyində müxtəlif rəhbər vəzifələrdə çalışmışdır.

Xoşbəxt Yusifzadə 1992-ci ilin may ayından “Azərineft” Dövlət Konserninin birinci vitse-prezidenti olmuş, həmin ilin noyabrından ömrünün sonunadək Azərbaycan Respublikasının Dövlət Neft Şirkətində prezidentin müşaviri, vitse-prezident və birinci vitse-prezident vəzifələrini tutmuşdur.

Akademik Xoşbəxt Yusifzadə Azərbaycanın neft salnaməsinə parlaq səhifələr yazmış şəxsiyyətlərdəndir. Xəzərdə genişmiqyaslı axtarış-kəşfiyyat işlərinin uğurla aparılmasında və dənizin zəngin potensialının üzə çıxarılmasında onun müstəsna xidmətləri vardır. Alimin bilavasitə rəhbərliyi və iştirakı ilə 20-dən artıq neft və qaz yatağı, o cümlədən “Azəri”, “Çıraq” və “Günəşli” yataqları kəşf edilərək istismara verilmişdir. Həmin yataqların kəşfi ölkəmizin neft strategiyasının milli mənafelərə uyğun gerçəkləşdirilməsində mühüm əhəmiyyət kəsb etmişdir. Neft-qaz geologiyası üzrə səriştəli mütəxəssis olan Xoşbəxt Yusifzadə uzun illər ərzində topladığı zəngin təcrübəsini neft sənayesi strukturlarında məsul vəzifələrdə çalışarkən öz təşkilatçılıq bacarığı ilə ahəngdar şəkildə birləşdirirdi.

Xoşbəxt Yusifzadə eyni zamanda neft və qaz sənayesinin aktual problemlərinin həlli, neft-qaz hasilatının inkişafı və geofiziki axtarış üsullarının təkmilləşdirilməsi sahəsində fundamental araşdırmaların müəllifi kimi tanınmışdır. Onun elmlə istehsalatın sıx bağlılığını əyani təcəssüm etdirən tədqiqatları Xəzər dənizinin Azərbaycan sektorundakı neft-qaz yataqlarının işlənməsi zamanı elmi metodların tətbiqində xüsusi rol oynamışdır. Xoşbəxt Yusifzadənin apardığı tədqiqatların nəticələri onun 200-ə yaxın elmi əsərində öz əksini tapmışdır. Alimin neft emalı sənayesində ixtiraları respublika iqtisadiyyatına böyük səmərə gətirmiş, karbohidrogen ehtiyatlarının həcmi ilə bağlı hesablamaları həmişə özünü doğruldaraq, ona həmkarları arasında nüfuz qazandırmışdır.

Xoşbəxt Yusifzadənin Azərbaycanın neft-qaz sənayesinin inkişafında əvəzsiz xidmətləri və çoxillik səmərəli fəaliyyəti daim yüksək qiymətləndirilmişdir. O, müstəqil Azərbaycanın ali mükafatları – “Heydər Əliyev”, “İstiqlal”, “Şöhrət”, “Şərəf”, 1-ci dərəcəli “Əmək” ordenləri və “Azərbaycan Respublikası Prezidentinin fəxri diplomu” ilə təltif edilmiş, “Əməkdar mühəndis” fəxri adına layiq görülmüşdür.

Görkəmli neftçi-alim və geoloq, səmimi və təvazökar insan Xoşbəxt Bağı oğlu Yusifzadənin xatirəsi onu tanıyanların qəlbində həmişə yaşayacaqdır.

**Allah rəhmət eləsin!**

**İlham ƏLİYEV,**
**Mehriban ƏLİYEVA,**
**Əli ƏSƏDOV,**
**Sahibə QAFAROVA,**
**Samir NURİYEV,**
**Eldar ƏZİZOV ,**
**Şahmar MÖVSÜMOV,**
**Fərəh ƏLİYEVA,**
**Mikayıl CABBAROV ,**
**Pərviz ŞAHBAZOV,**
**Emin ƏMRULLAYEV,**
**Rövşən NƏCƏF,**
**İsa HƏBİBBƏYLİ ,**
**Akif ƏLİZADƏ ,**
**İbrahim QULİYEV**

# Xoşbəxt Yusifzadə dəfn olundu



**Dünən Azərbaycan Dövlət Neft Şirkətinin birinci vitse-prezidenti, görkəmli neftçi-geoloq, akademik Xoşbəxt Bağı oğlu Yusifzadə ilə vida mərasimi keçirilib, mərhum Fəxri xiyabanda dəfn olunub.**

Milli Elmlər Akademiyası Rəyasət Heyətinin binasında təşkil edilən mərasimə Prezident İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın adından əklillər göndərilib.

Mərasimdə mərhumun ailəsi, yaxınları ilə yanaşı, Baş nazir Əli Əsədov və müavinləri, həmçinin bir sıra dövlət və hökumət nümayəndələri, Milli Məclisin deputatları və media mənsubları iştirak ediblər.

Azərbaycan Dövlət Neft Şirkətinin prezidenti Rövşən Nəcəf Xoşbəxt Yusifzadənin Xəzər dənizində, keçmiş Sovet İttifaqında neft-qaz sektoru ilə bağlı layihələrin altında mötəbər imzasının olduğunu deyib. O qeyd edib ki, görkəmli neftçi-geoloqun rəhbərliyi və bilavasitə iştirakı ilə dəniz neft-qaz yataqlarının işlənilməsinin nəzəri əsasları hazırlanıb və uğurla həyata keçirilib: “Xoşbəxt Yusifzadə bizim hamımızın müəllimi olub. Onun neft-qaz sənayesinin inkişafında rolu əvəzsizdir. Xoşbəxt müəllimdə istənilən sualın cavabı olurdu. O, Ulu öndər Heydər Əliyevin prezidentliyi zamanında neft emalında birinci milyard tonun, Prezident İlham Əliyevin hakimiyyəti zamanında isə ikinci milyard tonun şahidi olub. Xoşbəxt Yusifzadənin keçdiyi yol bütün gənclər, neftçilər üçün nümunədir”.

Akademik Akif Əlizadə Xoşbəxt Yusifzadənin vəfatını Azərbaycan elmi üçün olduqca böyük itki adlandırıb: “Xoşbəxt müəllim Xəzər neftinin vurğunu idi. Onun üçün Xəzər neftinin və qazının ayrıca bir özəlliyi, dəyəri var idi. Xoşbəxt müəllim Azərbaycan neftinin dünyaya layiqli formada təqdim edilməsinə nail oldu. Bu gün Prezident İlham Əliyevin rəhbərlik etdiyi dövlət siyasəti ilə həmin neft və qaz Avropanın ən ucqar nöqtələrinə belə gedir”.

AMEA prezidenti akademik İsa Həbibbəyli Xoşbəxt Yusifzadənin Azərbaycan neft sektoruna və ümumilikdə Azərbaycan elminə xidmətlərindən söz açıb: “Xoşbəxt Yusifzadə Azərbaycan üçün əvəzsiz xidmətlər göstərmiş dəyərli alim idi. Onun bu xidmətlərini Ulu öndər Heydər Əliyev və Prezident İlham Əliyev yüksək dəyərləndirib”.

Elm və təhsil naziri Emin Əmrullayev Xoşbəxt Yusifzadənin Azərbaycan elminə, neft-qaz hasilatına verdiyi töhfələrdən bəhs edib.

Əqli Mülkiyyət Agentliyinin İdarə Heyətinin sədri Kamran İmanov Xoşbəxt Yusifzadə ilə dostluq münasibətlərindən danışıb.

Vida mərasimindən sonra mərhumun cənazəsi Fəxri xiyabana aparılıb və dəfn olunub.

**XQ**

# Reinteqrasiya üçün müraciətlər artıb

**Dövlət Miqrasiya Xidməti və Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi Qarabağdakı ermənilərin reinteqrasiyası prosesi ilə bağlı birgə məlumat yayıb.**

Məlumatda Qarabağ bölgəsində sosial, humanitar, iqtisadi və infrastruktur məsələlərinin həlli üzrə İşçi qrupa verilən müvafiq tapşırıqlar çərçivəsində Dövlət Miqrasiya Xidməti və Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən bölgədə müvafiq işlərin davam etdirildiyi vurğulanıb.

Bildirilib ki, reinteqrasiya prosesinə qoşulmaq məqsədilə ilkin qeydiyyata alınmaq üçün fiziki olaraq yerində 13 nəfər, bu məqsədlə yaradılmış xüsusi portal reintegration.gov.az vasitəsilə elektron qaydada 2 nəfər olmaqla, ümumilikdə 15 nəfər sakin könüllü şəkildə zəruri olan bütün məlumatları təqdim edərək Dövlət Miqrasiya Xidmətinə müraciət edib. Sakinlərin hər birinin ilkin qeydiyyata dair müraciətləri qəbul edilib və onlara müraciətlərinin icrası barədə əlavə məlumat veriləcəyi bildirilib. Müraciət edənlər Qarabağ iqtisadi rayonunda yaşamaq və Ermənistan vətəndaşlığından çıxaraq Azərbaycan Respublikası vətəndaşlığını əldə etməklə Azərbaycan dövlətinin himayəsindən istifadə etmək istədiklərini çatdırıblar. Bundan başqa, Dövlət Miqrasiya Xidməti tərəfindən bölgədə səyyar qəbul zamanı sakinlərlə hüquqi maarifləndirmə işləri aparılıb, onlara reinteqrasiya prosesi barədə məlumat verilib.

Həmçinin reinteqrasiya ilə bağlı müraciətlərin qəbulu, icrası və maarifləndirmə işinin aparılması reintegration.gov.az (Çağrı Mərkəzi, WhatsApp, Çat və elektron poçt da daxil olmaqla) portalı vasitəsilə həyata keçirilir. Bu günədək portal vasitəsilə Dövlət Miqrasiya Xidmətinə ümumilikdə 98 müraciət daxil olub. Müraciətlərin əksəriyyəti reinteqrasiya prosesinə marağını ifadə edən şəxslər tərəfindən sorğu, həmçinin ilkin qeydiyyatdan keçmək üçün məlumat və dəstək xarakterli olub və hər biri müvafiq qaydada cavablandırılıb.

Həmçinin bölgəyə ezam olunan Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi əməkdaşları humanitar vəziyyətlə əlaqədar cari ehtiyacların müəyyən edilməsi üçün sakinlərlə ilkin sosial-psixoloji, sosial xidmətlərə, reabilitasiya xidmətlərinə dair qiymətləndirmə və maarifləndirmə işi aparıb, ehtiyacları müəyyənləşdirib, həmçinin əlillik və reabilitasiya xidmətlərinə dair məsləhətlər veriblər.

**XQ**

# Dünya “ikinci Nürnberq”i gözləyir

## Bakıda müttəhimlər kürsüsünə əyləşəcək hərbi canilərin siyahısında adlar çoxalır



**(əvvəli 1-ci səhifədə)**

Bunlar Qarabağdakı separatçıların keçmiş “prezident”ləri Arkadi Qukasyan (1997-2007), Bako Saakyan (2007-2020), Araik Arutyunyan (2020-2023), “Daşnakasutyun”partiyasının “Qarabağ təmsilçisi” və separatçı rejimin keçmiş parlament sədri David İşxanyan, habelə kifayət qədər cinayət törətmiş Ruben Vardanyan, Davit Babayan, Lyova Mnatsakanyan və Vaqif Xaçaturyandır

Onlar törətdikləri cinayət əməllərinə görə barələrində aparılan cinayət işləri üzrə Azərbaycan Respublikası DTX tərəfindən saxlanılaraq Bakıya gətirilib. Bəziləri barədə həbs qətimkan tədbiri seçilib, digərlərinin isə sorğusu davam etdirilir. İndi müstəntiqlərimizin suallarına cavab verən cinayətkarlar bu yaxınlara qədər Azərbaycanın ünvanına hədyanlar yağdırır, təhqiramiz ifadələr işlədirdilər. Bu, azmış kimi, bəzi separatçılar iştirakçısı və icraçısı olduqları cinayət səhnələrinin videogörüntülərini “qəhrəmanlıq dosyeləri” kimi sosial şəbəkələrdə paylaşıblar.

Araik Arutyunyanın Gəncənin raket atəşinə tutulması barədə “əmr”i şəxsən verməsi barədə açıqlaması xunta rejimi “rəhbərlərinin” uşaq qatili olduğunu bir daha təsdiqləyir. Yəqin hərbi tribunal həmin materialları əşyayi-dəlil kimi cinayət işinə əlavə edib. Terrora açıq çağırışların yer aldığı həmin videogörüntülər kifayətdir ki, istintaq onların cinayətini sübuta yetirsin.

* * *

Bu şəxslər on illər boyu Qarabağda şəxsən törətdikləri, yaxud təşkil və rəhbərlik etdikləri hərbi cinayətərə görə cavab verməlidirlər. Bu, dünyanın maraqla izləyəcəyi bir məhkəmə prosesi olacaq. Bəzi ekspertlər qarşıdakı məhkəmə dinləmələrini nasist cəlladlarının mühakimə olunduğu yetmiş yeddi il əvvəlki Nürnberq prosesi ilə müqayisə edirlər. Gözlərimizin qarşısında baş verən tarixi hadisələri məhz İkinci Dünya müharibəsindən sonra İsrailin (MOSSAD-ın– red.) yəhudi xalqına qarşı hərbi cinayətlər, etnik soyqırımı törətmiş faşist canilərini dünyanın müxtəlif qitələrində axtarıb tapması və layiq olduqları cəzanı verməsi ilə müqayisə etmək olar. XXI əsrin əvvəllərində Azərbaycan da separatçıları, terrorçuları özü cəzalandırmalı oldu. İndi ermənilər və ermənipərəst qüvvələr, insan haqları “müdafiəçiləri” onların müdafiəsinə qalxıb, müxtəlif bəyanatlar səsləndirirlər. Ermənistan mediası isə öz yalanlarını yenə tirajlamaqdadır.

* * *

Azərbaycan özünün ərazi bütövlüyü və suverenliyini tam təmin etdiyi kimi, buna qarşı çıxanları da cinayət məsuliyyətinə cəlb edərək cəzalandırmaqda israrlıdır. Son proseslər Ermənistanda və ondan kənarda hələ də revanşist düşüncədə olanlara, onların havadarlarına ibrət dərsi olmalıdır. Rəsmi Bakının nümayiş etdirdiyi siyasi iradə, atdığı qətiyyətli addımlar Azərbaycan ərazisində ikinci erməni dövləti yaratmağa, daha sonra “Böyük Ermənistan” xülyasını gerçəkləşdirməyə ümid edənlərə açıq mesaj və konkret siqnaldır. Aparılan məlum həbslər Azərbaycanı kiçik dövlət kimi görmək istəyənlərə də tərsinə vurulmuş şapalaq effektini verdi. Torpağımıza və dövlətimizə xəyanət edənlərin zərərsizləşdirilməsi Azərbaycanda hakimiyyətlə cəmiyyətinin vəhdətinin bariz nümunəsidir. Şübhə etmirik ki, kənardan separatçılara havadarlıq edənlər, onları dəstəkləyənlər də baş verənlərdən öz paylarını götürəcəklər. Son üç ildə şahidi və iştirakçısı olduğumuz hadisələr bir aksiomu ortaya qoydu: Azərbaycan hər müstəvidə Cənubi Qafqazın aparıcı dövləti, Orta Şərqin siyasi səhnəsində əsas oyunçulardan biridir.

Həbs edilən “titullu” hərbi cinayətkarlar barəsində Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 100.1, 100.2 (Təcavüzkar müharibəni planlaşdırma, hazırlama, başlama və ya aparma), 116.0.1, 116.0.6, 116.0.7, 116.0.8-1 (Silahlı münaqişə zamanı beynəlxalq humanitar hüquq normalarını pozma), 117.2 (Silahlı münaqişə zamanı cinayətkar əmr vermə), 120.2.1, 120.2.4, 120.2.12 (Qəsdən adam öldürmə), 186.3 (Əmlakı qəsdən məhv etmə), 214.2.1, 214.2.3 (Terrorçuluq), 218.3 (Cinayətkar birlik (təşkilat) yaratma), 279.3-cü (Qanunvericiliklə nəzərdə tutulmayan silahlı birləşmələri yaratma) maddələri ilə cinayət işi başlanıb. Onları ömürlük həbs cəzası gözləyir. Femida qarşısına çıxarılacaq müharibə canilərinin dairəsi qapanmayıb. Azərbaycana qarşı dövlət cinayəti işlədən daha üç separatçı-terrorçu hələ azadlıqdadır: Robert Koçaryan, Serj Sarkisyan və Seyran Ohanyan. Qarabağ kökənli bu hərbi cinayətkarların əli təkcə soydaşlarımızın deyil, həm də Ermənistanda yerli sakinlərin qanına batıb. “Müharibə qəhrəmanları”na qarşı Hayastanda da cinayət işi açılıb. Onların da qolları qandallı Bakıya gətiriləcəyinə inanırıq. Əslində, Qarabağda münaqişə ocağını daim körükləyən, əlləri minlərlə dinc soydaşımızın qanına bulaşmış baş hərbi cinayətkarların– “üçlüy”ün mühakiməsi daha yaddaqalan, cəzaları isə daha ağır olacaq. İnşallah, onlara da növbə çatar. Yoxsa, dünyaya nümayiş etdirəcəyimiz məhkəmə prosesi yarımçıq olar.

***İmran BƏDİRXANLI***
***XQ***

**EKSPERT RƏYİ**



***Çingiz QƏNİZADƏ,***
***Milli Məclisin deputatı,***
***hüquqşünas***

***Qarabağ separatçılarının həbs olunaraq Bakıya gətirilməsi hər şeydən əvvəl, Dövlət Təhlükəsizlik Xidməti əməkdaşlarının səyi nəticəsində reallaşıb. Müharibə canilərinin hər biri sülh və bəşəriyyət əleyhinə törətdikləri cinayətlərə görə ittiham olunacaqlar. Onlar üzərində məhkəmə prosesini necə görmək istərdim? Tarixdə alman faşistlərinin insanlıq əleyhinə və müharibə cinayətləri törətdiklərinə görə Nürnberq prosesi keçirilib. Həbs olunanlar ən ağır cəzaya məhkum ediliblər. Erməni separatçı-cinayətkarların da bir məhkəmə prosesində itiham olunmalarını təklif edərdim. Çünki bu adamlar həm 44 günlük müharibədə dinc şəhər və kəndlərimizi raket atəşinə tutduqlarına, həm də soyqırımı əməllərinə görə cinayət məsuliyyətinə cəlb olunmalıdırlar. Onlar məhz Azərbaycan türklərinin yaşadığı məntəqələrə raket atmaqla etnik soyqırımı törədiblər.***

***Belə əməlləri beynəlxalq hüquq da pisləyir. Təkcə Gəncə terroruna görə, BMT, Avropa İttifaqı, eləcə də digər beynəlxalq təşkilatlar bəyanatlar vermişdilər. Yəni, beynəlxalq hüququn qadağan etdiyi əməli törədən bu şəxslərin qısa zaman kəsiyində ardıcıl həbsi eyni məhkəmə prosesinin qurulmasına zəmin yaradır. Bir zalda, eyni məhkəmə heyətinin iştirakı ilə onların hərbi cinayətlərinə baxıla bilər. Prosesə həm ölkənin, həm də xarici ölkələrin jurnalistləri cəlb olunsun. O cümlədən, Ermənistanı və separatizmi dəstəkləyən ölkələrin diplomatları da dinləmələrdə iştirak etsinlər. Burada təkcə Azərbaycan qanunvericiliyinin deyil, beynəlxalq hüququn da pozulmasına dəlalət edən cinayətlərin bir prosesdə və geniş miqyasda işıqlandırılması vacibdir. Qoy həmin hərbi cinayətkarların etirafları lentə alınsın və dünyaya nümayiş etdirilsin. Çünki bunlar nasistlərdən də betərdir və insanlıq, bəşəriyyət əleyhinə cinayətlərinə görə ömürlük həbs cəzası alacaqlarına inanıram.***

**EKSPERT RƏYİ**



***Fərid ŞƏFİYEV,***
***Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin İdarə Heyətinin sədri***

***Bundan sonra erməni separatizmi ilə mübarizə media və hüquq müstəvisində aparılacaq. Görünən odur ki, ermənilər dezinformasiya və pozuculuq fəaliyyətlərindən əl çəkməyəcəklər. Artıq həbs olunanlarla bağlı Beynəlxalq Ədalət Məhkəməsi qarşısında iddia qaldırıblar. Hüquqi baxımdan Azərbaycanın mövqeyi çox güclüdür. Bizim suveren ərazimizdə ciddi müharibə cinayətləri törədilib. Ortada konkret cinayət əməlləri və dəqiq sübutlar var. Fikrimizcə, məhkəmə prosesi şəffaf, açıq aparılmalı, beynəlxalq müşahidəçilər, jurnalistlər üçün heç bir məhdudiyyət qoyulmamalıdır. Çox güman ki, bununla bağlı kənardan təzyiqlər də olacaq.***

***Beynəlxalq hüquqa görə, bizi kimsə, nədəsə ittiham edə bilməz. Ərazimizdə törədilmiş cinayətlərə görə məsuliyyətə cəlb etmək bizim hüququmuzdur. Bunu etməməkdən ötrü heç bir sənəd də imzalamamışıq. Üçtərəfli bəyanatda “Dağlıq Qarabağ” ifadəsi var. Beynəlxalq Məhkəmə buna istinad edə bilər. Bəli, may ayında cənab Prezidentin amnistiya ilə bağlı müraciəti var. Amma orada bütün cinayətkarlara qarşı amnistiyanın tətbiqindən söhbət getmir. Azərbaycan hakimiyyəti ilə işləyən, silahı yerə qoyan ermənilərə artıq amnistiya vermişik. Belələri artıq Laçın postumuzdan keçərək Azərbaycanı tərk ediblər. Yəni, hüquqi baxımdan mövqeyimizdə zəif məqam görmürəm. Amma Beynəlxalq Ədalət Məkməsinin fəaliyyətində siyasi qərar vetmək təcrübəsi də var. Kosovo barədə qərarı nəzərdə tuturam. Fransa və ABŞ tərəfindən müəyyən təzyiqlərin olması gözlənilәndir.***

***Ümumiyyətlə, bu prosesin gedişində ölkəmizə qarşı iki cinahdan təzyiq ola bilər. Birincisi Beynəlxalq Ədalət Məhkəməsi, ikincisi Avropa İnsan Haqları Məhkəməsi tərəfindən. Amma ermənilər nə qədər çalışsalar da, hüquq və ədalət bizim tərəfimizdə olacaq.***

# Bu gün Türk dünyası böyük bir ailədir

## Tarixi Naxçıvan təşəbbüsü Turana gedən yolu qısaldır

***Biz hər zaman bir-birimizin yanında olmalıyıq, Türk Dövlətləri Təşkilatının inkişafı ilə bağlı bütün üzv ölkələr öz dəyərli töhfələrini verirlər, o cümlədən, Azərbaycan. Azərbaycan bütün dövrlərdə bu təşkilatın güclənməsinə hər zaman öz dəstəyini əsirgəməmişdir və bizim xarici siyasət prioritetləri arasında təşkilata üzv ölkələrlə əlaqələr birinci yeri tutur. Bunu mən Prezident kimi dəfələrlə bəyan etmişəm, eyni zamanda, biz bunu əməli işlərdə də göstərmişik.***

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
**Bakı, 7 sentyabr 2023-cü il**

**Bəzi ekspertlər yazırlar ki, Türk dövlətlərinin əməkdaşlığının genişləndirilməsi SSRİ-nin çökməsindən sonrakı vəziyyətin tələb etdiyi çağırışlara cavab olaraq intensivləşmişdir. Doğrudur, burada da həqiqət var. Ancaq ulu öndər Heydər Əliyev hələ SSRİ dövründə də bu məsələni daim diqqətdə saxlayırdı. Məsələn, Mixail Qorbaçovun göstərişi ilə Qazaxıstan kimi böyük türk dövlətinə qeyri-qazax millətindən olan Gennadi Kolbin rəhbər təyin olunanda Kremldə yeganə türk təmsilçisi olan Heydər Əliyev buna ciddi şəkildə etiraz etmişdi.**

Xatırladaq ki, Qazaxıstanın dövlət başçısı Dinmühəmməd Kunayevlə Heydər Əliyevin dostluğu bütün türk siyasətçilərinə örnək sayılırdı. Heydər Əliyevin Sov.İKP MK Siyasi Bürosunda Qazaxıstana yeni rəhbər təyinatında Gennadi Kolbinin namizədliyinin əleyhinə çıxmışdı. Heydər Əliyev o vaxtlar Qazaxıstan Nazirlər Sovetinin sədri olan Nursultan Nazarbayevin namizədliyini təklif etmişdi. Zaman sübut etmişdi ki, Heydər Əliyev Kolbinin namizədliyinə etiraz edəndə tamamilə haqlı idi. Belə ki, Gennadi Kolbin Qazaxıstanın qısamüddətli və uğursuz rəhbəri olmuş, Alma-Atıda Jeltoksan hadisələri baş vermişdi və qazaxların qanı axıdılmışdı...

SSRİ-nin dağılmasından sonra da türkdilli dövlətlərin əməkdaşlığının genişləndirilməsinə ən böyük töhfəni məhz Heydər Əliyev vermişdi. Bu töhfə Azərbaycanla Türkiyə arasında inşa edilən “Ümid körpüsü”ndən başlanmış və Türkdilli Ölkələrin Əməkdaşlıq Təşkilatının Türk Dövlətləri Təşkilatına çevrilməsi kimi möhtəşəm beynəlxalq uğurla nəticələnmişdir.

Məlum olduğu kimi, Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının fəaliyyətinin əsas məqsədi türk ölkələri arasında hərtərəfli əməkdaşlığa yardım etməkdən ibarətdir. Bu beynəlxalq hökumətlərarası təşkilat türkdilli ölkələrin dövlət başçılarının 3 oktyabr 2009-cu il tarixində Naxçıvan şəhərində keçirilən Zirvə görüşündə imzalanmış Naxçıvan Sazişinə əsasən yaradılmışdır. Qurumun Dövlət Başçıları Şurası, Xarici İşlər Nazirləri Şurası, Yüksək Vəzifəli Şəxslər Komitəsi, Ağsaqqallar Şurası, Katibliyi, Koordinasiya Komitəsi, eləcə də Türk Şurasının Budapeştdəki Nümayəndəliyi fəaliyyət göstərir.

Xüsusilə vurğulanmalıdır ki, Azərbaycan, Qazaxıstan, Qırğızıstan və Türkiyə arasında qurulan təşkilatın üzvlərinin sayı qısa müddətdə 7-yə çatıb. Daha 2 dövlət – Macarıstan və Türkmənistan isə müşahidəçi statusu almışlar. Türk Şurası ötən illərdə böyük inkişaf yolu keçib.

Azərbaycan Türk Dövlətləri Təşkilatı ilə yanaşı, onun əlaqədar orqan və qurumları olan TÜRKSOY, TÜRKPA, Türk Akademiyası, Türk Mədəniyyəti və İrsi Fondu, Türk Biznes Şurası ilə də sıx əməkdaşlıq edir. Üzv ölkələr arasında elm, təhsil, mədəniyyət və incəsənət sahəsində əməkdaşlığın genişləndirilməsi, beynəlxalq səviyyədə türk dünyasının ortaq dəyərlərinin tanıdılması və təşviq edilməsi sahəsində aktiv rol oynayır. Təsadüfi deyildir ki, təşkilatın 2012-ci ildə Bişkekdə keçirilmiş ikinci Zirvə görüşündə Azərbaycanın təşəbbüsü ilə yaradılmış Türk Mədəniyyəti və İrsi Fondu 2015-ci il tarixindən etibarən qərargahı Bakı şəhərində yerləşməklə beynəlxalq təşkilat kimi fəaliyyətə başlamışdır.

Qurumun nizamnaməsində nəzərdə tutulan qarşılıqlı yardımlaşma məsələsi daim diqqət mərkəzindədir. Məsələn, TDƏŞ-in Dövlət Başçıları Şurasının 2020-ci il aprelin 10-da videokonfrans vasitəsilə keçirilən Fövqəladə Zirvə Görüşü “COVID-19 pandemiyası ilə mübarizədə həmrəylik və əməkdaşlıq” mövzusunda idi. Fövqəladə Zirvə Görüşündə “Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının Bakı Bəyannaməsi” qəbul olunmuşdur.

Fəxrlə yada salırıq ki, həm TDƏŞ, həm də TDT hər zaman Ermənistan və Azərbaycan arasında mövcud olmuş münaqişə ilə bağlı Azərbaycanın haqlı mövqeyini dəstəkləmişdir. TDƏŞ-in Katibliyi 2020-ci ilin iyul ayında baş vermiş Tovuz hadisələri və sentyabrın 27-dən başlayaraq Ermənistan tərəfindən həyata keçirilən təxribatlarla bağlı mütəmadi bəyanatlar vermiş, TDƏŞ baş katibi Bağdad Amreyev 2020-ci ilin 20 oktyabr tarixində Gəncə şəhərini ziyarət etmiş, Ermənistan tərəfindən Gəncənin raket atəşinə tutulması ilə bağlı Türk dünyası adından həmrəyliyi nümayiş etdirən bəyanat vermişdir. Eyni zamanda, TDƏŞ nümayəndə heyəti işğaldan azad edilmiş Ağdam və Füzuli rayonlarına da səfər etmişdir.



2021-ci il noyabrın 12-də İstanbulda keçirilmiş Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının VIII Zirvə görüşündə dünyanın siyasi sistemində önəmli bir platformaya çevrilməkdə olan Türk Şurasının bundan sonra Türk Dövlətləri Təşkilatı adı ilə fəaliyyətini davam etdirməsi haqqında qərar qəbul edilmişdir.

Bu sətirləri TDƏŞ-in TDT-yə çevrilməsindən sonrakı üç faktla yekunlaşdırmaq istəyirik. Birinci, Türk İnvestisiya Fondu yaradılmışdır. İkinci, ötən il martın 31-də TÜRKSOY Daimi Şurasının Bursa şəhərində keçirilən növbədənkənar iclasında Şuşa şəhərinin 2023-cü ildə Türk Dünyasının Mədəniyyət Paytaxtı elan olunmuşdur. Üçüncü, bu ilin fevralında Türkiyədə baş vermiş sarsıdıcı zəlzələnin nəticələrinin aradan qaldırılmasına kömək etmək üçün Azərbaycan Prezidenti İlham Əliyevin təşəbbüsü ilə martın 16-da Ankarada Türk Dövlətləri Təşkilatının Dövlət Başçılarının Fövqəladə Zirvə görüşü keçirilmişdir.

Sammitin açılışında çıxış edən Prezident Rəcəb Tayyib Ərdoğan Türkiyədə baş verən zəlzələdən sonra “Fəlakət– Fövqəladə halların idarə edilməsi və humanitar yardım” mövzusunda Fövqəladə Zirvə görüşünün keçirilməsi təşəbbüsünə görə Prezident İlham Əliyevə minnətdarlığını ifadə edərək demişdir: “Zirvə görüşünün keçirilməsi çağırışı ilə çıxış edən can Azərbaycanın Prezidenti cənab İlham Əliyevə şəxsən öz adımdan və millətim adından təşəkkürlərimi bildirirəm”.

Qardaş xalqların bu möhtəşəm təşkilatını 14 yaşının tamam olması münasibətilə təbrik edirik. Qədim türk dastanlarında və rəvayətlərində uşağın 14 yaşı tamam olanadək ondan hünər gözləmirdilər. 14 yaşda isə o, ağlını və gücünü sübut etməli idi. İnanırıq ki, qarşıdakı müddətdə həmin ağıl və gücün şahidi olacağıq. Turana doğru gedən yolumuz aydın və uğurlararla dolu olsun!

***İttifaq MİRZƏBƏYLİ***
***XQ***

5 oktyabr 2023-cü il, cümə axşamı Xalq qəzeti

# Fransa Afrikada itirdiklərini Cənubi Qafqazda tapmaq istəyir

## Ermənistanın növbəti müharibəyə təhrik edilməsi bəşəri cinayətdir

**İndi vaxt dar olduğuna görə bu ifadəni hansı yazıçının əsərində oxuduğumu dəqiqləşdirə bilmədim. Amma onu bilirəm ki, Avropa ədəbiyyatında oxumuşdum. Fikir belə idi ki, yaranmış vəziyyətə, üzləşdiyiniz mənfi əməllərə görə hansısa ölkəni və ya xalqı lənətləməyin, xalqın öndə gedənlərini və dövlət siyasətini yönəldənləri ittiham edin. Şəxsən mən həmin tövsiyəyə yüksək səviyyədə əməl edirəm. Yəni Fransa dövlətinin Cənubi Qafqazda törətdiyi antibəşəri əməllərinə görə qətiyyən fransız xalqına irad tutmaq məqsədim yoxdur. Çünki bu iyrənc addımları xalq atmır. Həmin əməllər dövlət siyasətini aparanların səhvi, günahı, hətta cinayətidir.**



İndi öz arqumentimi "sığortalayım". "Fransa dövlətinin antibəşəri əməlləri" ifadəsini işlətdim. Bu arqumentdə qətiyyən səhv yoxdur. Çünki bir xalqı başqa xalqla düşmən eləməyə çalışmaq, bir dövləti başqa dövlətin ərazisini işğal etməyə çağırmaq, sayı-hesabı bilinməyən silah-sursat göndərərək bir dövlət başçısını qonşu dövlətlə müharibəyə təhrik etmək – birmənalı şəkildə antibəşəri əməl, konkret desək, cinayətdir. Çox təəssüf ki, Makron Fransası bu cinayətləri törədəndə qətiyyən utanmır. Çünki utanmamağa vərdiş edib. Afrikada o qədər həyasızlıqlar edib, vəhşiliklər törədiblər ki, artıq üzlərində utanmaqdan əsər-əlamət qalmayıb. Ona görə də "qara qitə"-də nüfuzlarını itiriblər. İndi həmin itirdiklərini Cənubi Qafqazda tapmağa çalışırlar.

Utana bilmədiklərinə görə riyakarlıq eləməkdən də çəkinmirlər. Məsələn, Parisdən eşidilir ki, "Ermənistanın sərhədləri bizim üçün müqəddəsdir." Bəs Afrikadakı sərhədlər necə, müqəddəs deyildimi? Siz əlində əsir-yesir olduğunuz erməni diasporundan aldıqlarınıza görə Ermənistanın sərhədlərini "müqəddəs" adlandırırsınız. Afrikada isə həmin ölkələrin min illərlə sakini olmuş insanların bütün hüquqlarını pozur, sərhədlərini tapdayır, sərvətlərini talan edirsiniz. Lap uzağa getməyək, korsikalıların sərhədlərini neçə illərdir ayaq altında saxlayan kimdir? Onlar üçün müqəddəs dəyər yoxdurmu?

Region mətbuatı yazır ki, Fransanın 10-dan artıq Afrika ölkəsi ilə strateji səviyyədə olan münasibətləri məhz Emmanuel Makron hakimiyyətə gələndən sonra diplomatik əlaqələrin dondurulmasına qədər pisləşib. Bunun səbəbini həm tarix, həm də sadə fransızlar kimdənsə soruşacaqlar. O da əlavə edilir ki, Ermənistana dayaq durmağı özünün şərəf məsələsi kimi qəbul edən Fransa hakimiyyəti həm də ibtidai özfəaliyyət hissi ilə hərəkət edir.

Bundan başqa, siz Ermənistanın sərhədlərini kimdən qoruyursunuz? Ermənistan və Azərbaycanın dövlət başçıları bir-birinin ərazi bütövlüyünü dəstəklədiyini dəfələrlə deyiblərsə, Azərbaycan ərazisində yaradılmış ikinci erməni dövləti "özü özünü buraxıbsa", siz nə üçün Cənubi Qafqaza sülh gətirilməsinə mane olursunuz? Axı bütün səmavi dinlər sülhü təşviq edir, müharibəni lənətləyirlər. Siz nə üçün lənətlənənlər sırasında dayanmağı qürurla qəbul edirsiniz?

Avropa ekspertləri yazırlar ki, Fransa Ermənistana ən müasir silah-sursat göndərməyə hazırlaşır. Qoy göndərsinlər. Bir neçə il əvvəl Rusiyanın da Ermənistana 800 milyon dollar dəyərində silah-sursat verməsi faktı aşkarlanmışdı. Məsələ Azərbaycan diplomatiyasının etirazına, Milli Məclisdə keçirilən müzakirələrə səbəb olmuşdu. Bəs sonra nə oldu? Həmin silahların bir hissəsi yandırıldı, bir hissəsi Azərbaycan tanklarının tırtılları altında qaldı. Qalanları isə hərbi qənimət kimi Bakıya gətirildi. Ən başlıcası, oturduğu budağı kəsən ermənilər indi Rusiyanı bir nömrəli düşmən elan ediblər. Fikrimcə, növbə Fransa silahlarının həmin aqibəti yaşamasının və İrəvan rəhbərliyinin Parisi düşmən elan etməsinindir. İnşallah, bu da olacaq.

Ancaq Makronlara xatırladırıq ki, ABŞ Konqresinin Ermənistana ayırdığı yardımları da nəzərə alsaq, aydın görünürdü ki, ATƏT-in indi "fəxri təqaüd"də olan Minsk qrupunun hər üç həmsədri təcavüzkara dəstək verirdi. Ona görə də Ermənistana havadarlıq edən, hətta, onunla hərbi sazişə gedən qüvvələrin vasitəçiliyi ilə Qarabağ probleminin ədalətli həllinə yalnız sadəlövhləri inandırmaq mümkün idi. Amma Azərbaycan Prezidenti və şanlı ordumuz mümkün olmayanı mümkün etdi. Yəni, Makronun Parisdə atılıb-düşməsi Cənubi Qafqazda gedən proseslərə heç bir təsir göstərə bilməyəcək.

...Bu sətirləri Milli Məclisin deputatı Qüdrət Həsənquliyevin ötən ilin noyabrında dediyi fikirlərlə tamamlayırıq: "Fransa Prezidenti Azərbaycan əleyhinə açıqlamasında qeyd edir ki, onu heç kim neft və qazla ala bilməz. Mənsə deyirəm ki, vicdanlı, ədalətli, satılmayan adam işğalçı Ermənistanın şeypuruna, tütəyinə çevrilməz".

***İttifaq MİRZƏBƏYLİ***
***XQ***

KÖŞƏ

# Torpaq əgər uğrunda ölən varsa, Vətəndir!

## Dəmir sipərləri aşan şirürəkli oğullar

**...Tarixi şəxsiyyətlərin dilindən çıxmış, vaxtına və məqamına tam yapışmış, yaxud bədii əsərlərdə işlənmiş xalq deyimləri sonradan geniş yayılaraq zərb-məsələ, aforizmə çevrilir. Misal olaraq, indi müəyyən işdə, yarışda asan uğur qazanan birisi təkəbbürlə "Gəldim, gördüm, qələbə çaldım" – deyir. Bu ifadəni ilk dəfə Qay Yuli Sezar işlədib. Bir-birinin ardınca məmləkətləri zəbt edən Roma imperatoru hər dəfə Senata qələbəsi barədə geniş hesabat yazırmış. Həmin qələbələr çoxalanda və adiləşəndə Sezar hesabatda cəmi üç söz işlədirmiş: "Gəldim, gördüm, qələbə çaldım" ("Veni, vidi, vici"). Deyilənlərə görə, hər qələbədən sonra Romaya zəfərlə daxil olan Sezarın zər-zibaya tutulmuş döyüş arabasının önündə əsgərlər böyük hərflərlə bu sözlərin yazıldığı plakatı aparırlarmış.**



**İmran HƏSƏNQALA**
**imranbedirxanli01@gmail.com**

Yaxud Maksim Qorkinin "Şahin nəğməsi" əsərindən sonra "Sürünmək üçün doğulanlar uça bilməzlər" aforizmi dillərdə əzbər oldu. Müasir dövrümüzdə də bu aforizmi işlədəndə böyük rus yazıçısına istinad edir, məşhur əsərini xatırlayırlar.

İstiqlal şairi Midhat Cemal Kuntayın

***Bayraqları bayraq yapan***
***üstündəki qandır,***
***Torpaq əgər uğrunda***
***ölən varsa, Vətəndir!***

misraları isə özündə Türkün yurd sevgisini, mehmetciyin döyüş əzmini təcəssüm etdirir. Böyük Turanın qapısına çevriləcək Azərbaycanın nər oğulları bunu üç il bundan əvvəl Qarabağı işğaldan azad edəndə, 15 gün öncə lokal antiterror tədbirində bütün çılpaqlığı ilə sübuta yetirdilər.

...İkinci Qarabağ savaşında fərarilərin sayı 12 minə çatmış hayların silah-sursatını, hərbi texnikasını döyüş meydanında atıb qaçması heç kəsi təəccübləndirmədi. Çünki Azərbaycanın müzəffər ordusunun yurd sevgili, şir ürəkli əsgərləri qarşısında heç zaman torpağı Vətənə çevirməyi bacarmamış bir qövmün gözüqıpıq törəmələri duruş gətirə bilməzdi və bilmədilər.

Azərbaycan Müdafiə Nazirliyi Qarabağ bölgəsində keçirilən lokal xarakterli antiterror tədbirləri başa çatdıqdan sonra düşmənin döyüş meydanında qoyub qaçdığı və ordumuzun müsadirə etdiyi hərbi texnika, silah və sursatların statistikasını verir. Bakıdakı Hərbi Qənimətlər Parkındakı eksponatların sayını xeyli zənginləşdirəcək həmin silah-sursatın çoxu müasir döyüş vasitələridir. Amma əsgər, zabit ən mükəmməl silahdan, texnikadan yararlana bilməyəndə onlar sadəcə metal yığınına dönür.

Əgər sənin 2608 avtomatı sinəsinə sıxmağa, 5880 qumbaranı əlinə götürməyə qadir şirürəkli Xudayarların, 5177 mərmini qurğuya daşıyacaq məğrur topçu Vüsalların, 31 tankı idarə edəcək polad biləkli Albertlərin yoxdursa, hərb meydanında nə işin var?!

"General olmağı arzulamayan əsgər əsgər deyil". Bu aforizmin müəllifi Aleksandr Suvorov olub. Əlbəttə, döyüşməyi bacarmayan sıravi əsgər heç vaxt general rütbəsinə gedib çata bilməz. Bundan ötrü onun hərbi bilik və bacarığından savayı, həm də yurd sevgisindən yoğrulmuş polad iradəsi, onu düşmənin üstünə aparan şir ürəyi və qurd ciyəri olmalıdır.

...Silah və ürək. Metal və insan orqanının düz mütənasibliyindən rişələnən qəhrəmanlıq nümunəsi. Həmin silahları ən müxtəlif yerlərdə icad edə bilərlər, amma qurd ürəkli oğullar heç də hər yerdə doğulmur!

# Gəncəyə raket atılması erməni faşizminin qəddar simasının qanlı təzahürü idi



**(əvvəli 1-ci səhifədə)**

2020-ci ilin oktyabr ayında Gəncə Ermənistan silahlı birləşmələri tərəfindən ayrı-ayrı günlərdə 5 dəfə bombalandı. Şəhərə birinci hücum oktyabrın 4-də baş verdi və nəticədə bir mülki şəxs – Əliyev Tunar Qoşqar oğlu şəhid oldu, 30-dan çox dinc sakin yaralandı. Bu, İkinci Qarabağ müharibəsinin gedişində dinc yaşayış məskəninə ilk hücum idi.

Gəncə ikinci dəfə oktyabrın 5-də raket atəşinə məruz qoyuldu. Nəticədə 3 mülki şəxs yaralandı. Şəhərə üçüncü raket hücumu oktybarın 8-də, dördüncü raket hücumu isə həmin ayın 11-də baş verdi. Dördüncü hücum zamanı şəhərdə 10 mülki şəxs şəhid oldu, 40-dan çox insan yaralandı. Bu hücum həm də tərəflər arasında əldə olunmuş atəşkəs razılaşmasından sonra edildi və bununla da atəşkəs pozuldu.

Ermənistanın Gəncəyə beşinci raket hücumu 17 oktyabrda baş verdi. Həmin hücum daha ağır nəticələr verdi, hamısı mülki şəxslər olmaqla, 16 nəfər həlak oldu, 55 nəfər yaralandı. Eyni zamanda, yaşayış binası dağıdıldı, şəhərin infrastrukturuna, digər binalara və avtomobillərə ziyan dəydi. Ümumiyyətlə, münaqişə zonasından 100 kilometrdən artıq məsafədə yerləşən Gəncə şəhərinə raket hücumları nəticəsində aralarında qadın və uşaqlar da olmaqla 26 mülki şəxs həlak oldu, 142 nəfər yaralandı.

Doğrudur, ermənilərin bu hücumları BMT, Avropa İttifaqı və Türkiyə tərəfindən qınandı, ancaq bu günə qədər günahsız insanların həlak olması ilə bağlı heç kəs cinayət məsuliyyətinə cəlb olunmayıb.

Azərbaycan Prezidenti İlham Əliyev 2020-ci ilin 12 oktyabrında Türkiyənin "Haber Global" televiziya kanalına müsahibəsində bildirmişdi ki, gecə saatlarında mülki əhaliyə qarşı dəhşətli cinayət törədilib. Gəncə şəhəri "Toçka-U" raketləri ilə atəşə məruz qalıb. Bunun nəticəsində mülki şəxslər həlak olub və yaralanıb: "Bu, erməni faşizminin eybəcər sifətinin növbəti təzahürüdür. Artıq dünya erməniləri, onların hamiləri və islamafob dairələr bu cinayəti gizlədə bilməyəcək".

Prezident 2020-ci il oktyabrın 20-də xalqa müraciətində deyirdi: "... Mənfur düşmən bizim yaşayış məntəqələrimizi daim atəşə tutur, hər gün cəbhəboyu şəhərlərimiz, kəndlərimiz mənfur düşmənin atəşinə məruz qalır. Bu namərd atəşə ən çox məruz qalan Tərtər rayonudur, eyni zamanda, Ağdam, Goranboy, Ağcabədi, Bərdə, digər şəhər və rayonlarımız düşmən tərəfindən atəşə tutulur. Gəncə şəhərinə namərd zərbələr nəticəsində dinc əhali həlak olur – uşaqlar, qadınlar, qocalar. Düşmən üçün bunun fərqi yoxdur. Onlar döyüş meydanında məğlubiyyətə uğrayır, Azərbaycan Ordusunun qarşısında duruş gətirə bilmir və bizi durdurmaq üçün, bizə zərbə vurmaq üçün bütün dünyanın gözü önündə mülki əhaliyə qarşı cinayət törədir. Bütün dünya görür ki, Azərbaycan hansı mənfur, vəhşi düşməndən öz doğma torpaqlarını azad edir".

Bəli, Qarabağ münaqişəsi dövründə azərbaycanlılara qarşı qətliamlar, soyqırımları törətmiş cinayətkarlar artıq cəzalarını almağa başlayıblar. Qarabağda həyata keçirilmiş antiterror tədbirlərindən sonra Araik Arutyunyan, Bako Saakyan və digərləri tutularaq Bakıya gətiriliblər. Arutyunyan Gəncəyə zərbə endirilməsi ilə bağlı əmr verdiyini etiraf edib. İnanırıq ki, dövlətimiz Gəncəyə və digər dinc regionlarımıza zərbələr endirilməsinə səbəb olan digər cinayətkarların da tutularaq Azərbaycanın ədalət mühakiməsinə təslim edilməsini təmin edəcək. Bu canilər gec də olsa, qanunlarımız qarşısında cavab verməlidirlər.

***Paşa ƏMİRCANOV***
***XQ***

### Ekspert rəyi

**Yeganə HACIYEVA,**
**politoloq**



44 günlük Vətən müharibəsi günlərində Ermənistan Azərbaycanın mülki əhalisinə qarşı müharibə cinayətləri törətdi. Bir neçə şəhərimiz müharibə qanunlarına zidd olaraq hücuma məruz qaldı. Hərbi obyektlərin yerləşmədiyi böyük şəhərlərimiz – Gəncə və digərləri gecə saatlarında, insanlar yuxuda olarkən, qırğınların sayı daha çox olsun deyə, atəşə tutuldu. Beləliklə, İkinci Dünya müharibəsindən sonra ilk dəfə ATƏT coğrafiyasında bu təşkilatın üzvü olan bir ölkə digərinin ərazisini, mülki insanlarını raket atəşinə tutdu.

Gəncə kimi böyük bir şəhərimizin hədəfə alınmasına dünyanın susqunluq nümayiş etdirməsi ermənilərin bu prosesi sonradan da təkrarlamasına səbəb oldu. Bunlar təbii ki, Azərbaycan dövləti və əhalisinin iradəsini sındırmaq, eləcə də müharibənin gedişini dəyişmək, müharibənin nəticələrini öz xeyrinə dəyişmək üçün cılız cəhdlər idi. Bu, eyni zamanda, müharibə cinayətləri idi və Beynəlxalq Ədalət Məhkəməsində mühakimə üçün mövzu ola biləcək addımlar idi. Bunlar Ermənistanın Azərbaycanın mülki əhalisinə qarşı növbəti terror əməlləri idi.

Cəbhədə uğursuzluğa uğrayan və bunu qəbul edə bilməyən Ermənistan Gəncəni və mülki əhalimizin yaşadığı digər yerləri ballistik raketlərlə atəşə tuturdu. Bütün bunlar artıq Azərbaycan insanının qan yaddaşında möhkəmlənmiş, unudulması mümkün olmayan hadisələr, insanlıq əleyhinə cinayətlər idi. İndi qalır bu terror aktlarının həyata keçirilməsi üçün əmr verənlərin layiq olduqları cəzaya çatdırılması. Azərbaycan bu istiqamətdə də fəaliyyətini davam etdirir. Cinayətkarların cəzalarına çatmasına az qalır.

# Qarabağ mədənlərinin qanunsuz istismarına son qoyulub

## Cinayətkarlar isə lazımi cəzalarına çatacaqlar



**Ermənistanın işğalı zamanı Azərbaycanın nəzarət zonasından kənarda qalan Qarabağ qeyri-qanuni fəaliyyət üçün əlverişli meydan olub. Burada işğalçı dövlət beynəlxalq şirkətlərlə birgə dağ-mədən yataqlarını qanunsuz istismar edib. İşğalın davam etdiyi uzun illər ərzində təbii sərvətlərimiz talan edilərək xaricə daşınıb.**

### Təbii sərvətlərin istismarı

İstismar edilmiş ərazilər arasında Tərtər rayonunda yerləşən “Qızılbulaq” və “Dəmirli” yataqları da var. "Qızılbulaq" yatağının qiymətlədirilmiş ehtiyatı 13 min 700 ton qızıl, “Dəmirli”nin ehtiyatı isə 457 min ton misdir. Hər iki yatağın istismarında Lixtenşteyndə qeydiyyata alınmış “Base metals” şirkəti əsas rol oynayıb. İllik gəliri 8 milyon ABŞ dolları təşkil edən şirkət “Qızılbulaq” yatağından hər ay 12 min ton filiz çıxarıb. Xammal Ermənistana aparılıb və orada təkrar emal olunduqdan sonra dünya bazarına çıxarılıb.

“Base metals” şirkəti yalnız “Dəmirli” yatağını deyil, “Heyvalı” qızıl və mis mədənlərini də talayıb. Bu yataqdan 2009–2011-ci illərdə 400 min ton filiz emal edilib. Həmin müddətdə texnoloji emal həddi 150 min ton olmalı idi. “Dəmirli” yatağından çıxarılan filiz Avropa ölkələrinə ixrac edilib.

2020-ci ilə qədər “Qızılbulaq” və “Dəmirli” qızıl yataqlarını talayan xarici şirkət cinayətkar fəaliyyətinə haqq qazandırmaq üçün qondarma Xankəndi rejiminə maliyyə dəstəyi göstərib. Məsələn, 2019-cu ildə 38,5 milyon dollar qanunsuz fəaliyyət vergisi ödəyib. Rejimin himayəsi ilə ixracın 60 faizi, ümumi gəlirlərin 32 faizini məhz bu şirkət təmin edib.

“Herq” nəşrinin məlumatında isə bildirilib ki, 2019-cu ildə dağ-mədən sənayesi qondarma rejimin ÜDM-nin 13,7 faizini (97,6 milyon ABŞ dolları) istehsal edib. Bununla yanaşı, “Base metals” şirkətinin öz gəlirləri də az olmayıb. Azərbaycan Baş Prokurorluğu onun 2009–2017-ci illərdə “Qızılbulaq” yatağını amansız istismar edərək 178 milyon dollar qazandığını sübuta yetirib. Digər yataqların istismarını da nəzərə alsaq şirkət 2009–2017-ci illərdə 301 milyon 918 min manat məbləğində qanunsuz gəlir əldə edib.

### Ciddi ekoloji risklər

İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzindən bildirilib ki, Qarabağda təbii ehtiyatların heç bir norma gözlənilmədən amansız istismarı iqtisadi ziyanla yanaşı, ciddi ekoloji təhlükə də yaradıb. Təbiətə vəhşi münasibət çox çirklənmiş tullantı hovuzların əmələ gəlməsinə gətirib çıxarıb. Məsələn, “Heyvalı” filiz yatağında 3 tullantı hovuzu var. “Dəmirli” mədən yatağının 740 hektar ərazisində isə qanunsuz geoloji kəşfiyyat, qazıntı-hasilat işləri və yeni infrastruktur tikintisi aparılıb. Bu zaman ərazidəki tarixi-memarlıq və arxeoloji abidələrimiz də məhv edilib. Bundan başqa, “Dəmirli” dağ-mədən kompleksinin tikintisi zamanı 82 hektara yaxın meşə örtüyü sıradan çıxarılıb. Nəticədə, ətraf mühitə böyük ziyan dəyib, çaylar və yeraltı sular ağır metallarla çirklənib. Uzun illər bu ərazidə yanğınlar təşkil edilib, su hövzələri kimyəvi çirklənməyə məruz qalıb.

Tullantı hovuzlarının yaxınlığında isə Sərsəng Su Anbarı yerləşir. Bu ərazilər seysmik cəhətdən təhlükəli zonadır. Zəlzələ və ya texnogen proseslər nəticəsində tullantı hovuzlarından zəhərli maddələr su anbarına sıza bilər. 2012-ci ildə belə bir hadisə olmuşdu. Həmin vaxt Heyvalı kəndi yaxınlığındakı mədəndən sianid turşusunun sızması nəticəsində Sərsəng Su Anbarında balıqlar məhv olmuşdu.

### Cinayətkar şirkətləri cəza gözləyir

Ölkəmizə iqtisadi ziyan vurmaqla yanaşı, ekoloji təhlükə yaradanları ikiqat cəzalar gözləyir. Bu, Azərbaycan Respublikasının Cinayət Məcəlləsi ilə tənzimlənir. Baş Prokurorluğun İstintaq İdarəsi işğal olunmuş rayonların ərazilərində xarici dövlətlərin erməniəsilli vətəndaşlarının ekologiya və yerin təkinin istismarı qaydalarını kobud şəkildə pozması ilə nəticələnən qanunsuz sahibkarlıq fəaliyyəti ilə məşğul olmaları üzrə 2015 və 2018-ci illərdə Cinayət Məcəlləsinin 192.2.3 (qanunsuz sahibkarlıq) və 318.2-ci maddələri ilə (dövlət sərhədini qanunsuz keçmə) cinayət işləri başlanıb. Məcəlləyə görə, “Qızılbulaq” və “Dəmirli” mədənlərində qanunsuz sahibkarlıqla məşğul olaraq



sərvətlərimizi talan edənləri 7 ilədək həbs cəzası gözləyir. Onlar Azərbaycan Respublikasına dəymiş ziyanın 4 mislini dövlət büdcəsinə ödəməlidirlər. Onu da bildirək ki, Azərbaycan dövləti işğal nəticəsində dəyən zərərin ödənməsi məqsədilə Ermənistana qarşı beynəlxalq məhkəmələrdə iddia qaldırmağa hazırlaşır.

Artıq "Qızılbulaq" və “Dəmirli” yataqları Azərbaycan Ordusunun nəzarətinə keçib. Düşmənin 30 ilə yaxın işğal altında saxladığı torpaqları azad edən ordumuz ölkənin hərbi-siyasi nüfuzunu yüksəltməklə yanaşı, gələcək iqtisadi inkişafımıza da zəmin yaradıb. Tezliklə bu resursların qeyri-qanuni istismarı ilə bağlı kompleks qiymətləndirilmə aparılacaq. Düşmən ölkənin və separatçı rejimin rəhbərlərinin, bu prosesdə iştirak edən cinayətkar xarici şirkətlərin məsuliyyətə cəlb olunması ilə bağlı bütün lazımi tədbir həyata keçiriləcək.

***Pünhan ƏFƏNDİYEV***
***XQ***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 348** **Bakı şəhəri, 28 sentyabr 2023-cü il**

***“Bərpa olunan enerji mənbələri üzrə informasiya sisteminin Əsasnaməsi”nin təsdiq edilməsi haqqında***

“Elektrik enerjisi istehsalında bərpa olunan enerji mənbələrindən istifadə haqqında” Azərbaycan Respublikasının 2021-ci il 31 may tarixli 339-VIQ nömrəli Qanununun tətbiqi barədə” Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 12 iyul tarixli 1387 nömrəli Fərmanının 1.1.3-cü yarımbəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** “Bərpa olunan enerji mənbələri üzrə informasiya sisteminin Əsasnaməsi” təsdiq edilsin (əlavə olunur).

**2.** Azərbaycan Respublikasının Energetika Nazirliyi:

2.1. Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi ilə birlikdə “Bərpa olunan enerji mənbələri üzrə informasiya sistemi”nin (bundan sonra – BOEMİS) fəaliyyətinin təşkili, saxlanılması və ondan səmərəli istifadənin təmin edilməsi üçün zəruri tədbirlər görsün;

2.2. Azərbaycan Respublikasının Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidməti ilə birlikdə BOEMİS-in təhlükəsizliyinin təmin edilməsi üçün zəruri tədbirlər görsün;

2.3. Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 12 sentyabr tarixli 263 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Dövlət informasiya ehtiyatları və sistemlərinin formalaşdırılması, aparılması, inteqrasiyası və arxivləşdirilməsi Qaydaları”na uyğun olaraq, BOEMİS-in Elektron Hökumət İnformasiya Sisteminə inteqrasiyası üçün Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi ilə birlikdə zəruri tədbirlər görsün.

**3.** Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi, Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi, Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin tabeliyində Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyəti, “Azərenerji” Açıq Səhmdar Cəmiyyəti və “Azərişıq” Açıq Səhmdar Cəmiyyəti bu Qərarın 1-ci hissəsi ilə təsdiq edilmiş Əsasnamənin 6.1-ci bəndində nəzərdə tutulmuş məlumatların Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə əldə olunmasını təmin etmək məqsədilə həmin məlumatların BOEMİS-ə daxil edilməsini (ötürülməsini) mütəmadi təmin etsinlər və bu barədə ildə bir dəfə Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versinlər.

**4.** Bu Qərarda dəyişiklik Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 24 avqust tarixli 772 nömrəli Fərmanı ilə təsdiq edilmiş “İcra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının hazırlanması və qəbul edilməsi qaydası haqqında Əsasnamə”nin 2.6-1-ci bəndinə uyğun edilə bilər.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının***
***Baş naziri***

**Qeyd: Qərara edilmiş əlavələrin tam mətni ilə www.nk.gov.az və www.xalqqazeti.com saytlarında tanış ola bilərsiniz.**

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 349** **Bakı şəhəri, 28 sentyabr 2023-cü il**

***Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 7 iyun tarixli 255 nömrəli Qərarı ilə təsdiq edilmiş “Azərbaycan Respublikası Dövlət Turizm Agentliyinin strukturuna daxil olmayan tabeliyindəki qurumların Siyahısı”nda dəyişiklik edilməsi barədə***

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, “Tuğ” Dövlət Tarix-Memarlıq və Təbiət Qoruğunun yaradılması haqqında” Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 16 iyun tarixli 3920 nömrəli Sərəncamının 2.4-cü bəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 7 iyun tarixli 255 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 6, maddə 1354, № 9, maddə 1909; 2019, № 2, maddə 352, № 4, maddə 754, № 8, maddə 1462; 2020, № 6, maddə 793, № 9, maddə 1235; 2023, № 2, maddə 316) ilə təsdiq edilmiş “Azərbaycan Respublikası Dövlət Turizm Agentliyinin strukturuna daxil olmayan tabeliyindəki qurumların Siyahısı”nın 2.8-ci bəndinin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz olunsun və aşağıdakı məzmunda 2.9-cu bənd əlavə edilsin:

“2.9. “Tuğ” Dövlət Tarix-Memarlıq və Təbiət Qoruğu.”.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının***
***Baş naziri***

## Sosial sfera yenilikləri

### DOST MDB məkanında

***Müstəqil Dövlətlər Birliyinin (MDB) iştirakçı dövlətlərinin əmək, məşğulluq və əhalinin sosial müdafiəsi üzrə Məşvərət Şurasının 36-cı iclası keçirilib. İclasa onlayn formatda qoşulan Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyindəki DOST Agentliyinin İdarə Heyətinin sədri Fərid Məmmədov tədbir iştirakçılarına DOST konsepsiyası barədə təqdimat edib.***



Bildirilib ki, DOST mərkəzlərində sosial sahələr üzrə 159 xidmət “bir pəncərə”dən, operativ, şəffaf, vətəndaş rahatlığı və məmnunluğuna uyğun təqdim olunur. DOST konsepsiyasının beynəlxalq səviyyədə də yüksək dəyərləndirilərək xüsusi mükafatlara layiq görüldüyü, bir sıra ölkələrin də DOST təcrübəsini tətbiq etməkdə maraqlı olduğu vurğulanıb.

DOST Agentliyinin “Könüllü DOST” proqramı barədə də məlumat verilib. Qeyd edilib ki, proqram “Gənc DOST”, “Gümüşü DOST”, “Korporativ DOST”, “İnklüziv DOST” və “Distant DOST” altproqramlarını əhatə edir. Könüllülər mərkəzlərdə vətəndaş məmnunluğuna uyğun xidmətlərin göstərilməsinə dəstək verirlər. Proqrama indiyədək 100 minədək müraciət daxil olub, 4 minə yaxın şəxs proqramda iştirak edib.

Təqdimat tədbir iştirakçıları tərəfindən böyük maraqla qarşılanıb. Pensiya yaşına çatmış şəxslərin cəmiyyətə reinteqrasiyası, yaşlı şəxslərin asudə vaxtının səmərəli təşkili məqsədilə təşkil olunan “Gümüşü DOST” altproqramı xüsusi maraq doğurub. 2024-cü ilin “MDB Könüllülər hərəkatı ili” elan edilməsi çərçivəsində DOST Agentliyinin bu təcrübəsinin Məşvərət Şurasının iştirakçısı olan təşkilatlarda tətbiqi ilə bağlı müzakirə aparılıb.

Xatırladaq ki, “Ümumrusiya əməyin mühafizəsi həftəsi” çərçivəsində Rusiyanın Soçi şəhərində keçirilən tədbirdə MDB-də əmək və sosial müdafiə sahəsində mövcud vəziyyət, 2024-cü ilin “MDB Könüllülər hərəkatı ili” elan edilməsi, eləcə də rəqəmsal platformalar üzərindən təmin olunan məşğulluğun və özünüməşğulluğun tənzimlənməsi məsələləri müzakirə edilib.

### Ahıllara qayğının əhatəsi artır

***“Sosial xidmət haqqında” Qanuna əsasən, ölkəmizdə yaşı 70-ə çatmış şəxslər ahıl hesab olunurlar və hazırda ölkəmizdə 465 minədək ahıl (yəni 70 və daha yuxarı yaşda olan) şəxs vardır. Ahıl vətəndaşların rifahında mühüm amil olan pensiya təminatı ildən-ilə gücləndirilir. Təkcə son 5 ildə ardıcıl sosial islahatlar nəticəsində minimum pensiyada 2,5 dəfə, orta aylıq pensiyada 2,1 dəfə, sosial müavinət və təqaüd ödənişlərində 5 dəfə artım baş verib.***

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi və BMT-nin Əhali Fondunun birgə layihəsi olan “Bütün yaşlar üçün cəmiyyətin qurulması: fəal yaşlanma yolu ilə Azərbaycanda yaşlıların rifahının təşviq edilməsi” layihəsi yaşlı, ahıl şəxslərə önəmli dəstəkdir. Ötən dövrdə həmin şəxslərin fəal və sağlam həyat tərzi keçirmələrinə xidmət edən müxtəlif tədbirlər həyata keçirilib.

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Sosial Xidmətlər Agentliyinin Ahıl şəxslər üçün sosial xidmət müəssisə-



sində hazırda 200-dən çox ahıl şəxs dövlət himayəsində yaşayır. Bu müəssisədə son illərdə müasir tələblərə uyğun şərait yaradılıb, həmçinin 5 mərtəbəli 170 yerlik əlavə korpus istifadəyə verilib. Burada ahıl sakinlərin asudə vaxtlarının səmərəli təşkili üçün tədbirlər, mədəniyyət mərkəzlərinə, müxtəlif istirahət mərkəzlərinə ekskursiyaları, gəzintiləri və s. təşkil olunur.

Agentlik tərəfindən bu il tənha və əlilliyi olan 5 min 300 şəxsə evlərində sosial-məişət xidmətləri göstərilib ki, onlardan 4 min 700-dən çoxu ahıl şəxslərdir. Son illər sosial xidmət sistemində yeni istiqamət kimi, ahıllar üçün günərzi qayğı mərkəzləri də yaradılıb.

“Azərbaycan Respublikasında sosial xidmətin inkişafına dair 2023–2026-cı illər üçün Dövlət Proqramı”na əsasən isə 2024–2026-cı illərdə əlilliyi olan və ahıl şəxslər üçün bir sıra bölgələrdə mobil xidmət mərkəzlərinin də yaradılması nəzərdə tutulub. Bu mərkəzlər həmin şəxslərə onlara lazım olan yardım və sosial xidmətlərdən daha çevik faydalanmağa imkan verəcək.

Proqramla ahıl şəxslərin ictimai faydalı fəaliyyətə cəlb edilməsi, bilik və bacarıqlarından məqsədyönlü istifadə edilməsi və s. ilə bağlı layihələr də həyata keçiriləcək.

### Qazilər üçün kiçik biznes

***Dövlət Məşğulluq Agentliyi tərəfindən Bakı və Sumqayıt şəhərlərində daha bir qrup müharibə veteranına özünüməşğulluq proqramı üzrə aktivlər təqdim edilib. Seçdikləri fəaliyyət istiqamətləri (avtomobil şinlərinin bərpası və təmiri xidmətləri) üzrə lazımi avadanlıqlarla təmin edilməklə onlar üçün kiçik bizneslər yaradılıb.***

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyindən bildiriblər ki, tarixi Zəfərimizlə başa çatan Vətən müharibəsindən sonrakı dövrdə cari ilin 1 sentyabr tarixinə qədər şəhid ailələri üzvləri və müharibə iştirakçıları olan 19 min 600 şəxs aktiv məşğulluq proqramlarına cəlb olunub. Onlardan 10 min 100 nəfər özünüməşğulluq proqramına cəlb edilib və həmin şəxslər üçün proqramın dəstəyi ilə kiçik təsərrüfatlar yaradılıb.



Proqrama cəlb edilənlər öncə təlimlərə cəlb edilir, daha sonra isə qiymətləndirmədən keçərək aktivlərlə təmin olunurlar. Aktivlərlə təmin olunan şəxslərə sonrakı mərhələdə biznesin idarə edilməsi və inkişafı ilə bağlı məsləhət xidmətləri də göstərilir.

### Həssas qrupların sosial müdafiəsi gündəmdə

***Qarşıda duran əsas vəzifələrdən biri şəhid ailələri və digər həssas qrupların sosial dəstək tədbirləri ilə əhatə olunmasıdır. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyində keçirilən növbəti kollegiya iclasında bu sahədə aparılan işlərdən bəhs olunub.***

Kollegiyanın sədri, nazir Sahil Babayev Vətən müharibəsindən sonra Prezident İlham Əliyevin tapşırığına əsasən şəhid ailələri, müharibə ilə əlaqədar əlilliyi olan şəxslər, müharibə iştirakçıları ilə bağlı həyata keçirilən geniş sosial dəstək tədbirlərini qeyd edib.

Onun çıxışında həyata keçirilmiş uğurlu lokal antiterror tədbirləri zamanı şəhidlik zirvəsinə ucalmış hərbçilərimizin ailələrinin, habelə həmin tədbirlər zamanı yaralanmış hərbçilərimizin də sosial dəstəklə təminatının hazırda əsas fəaliyyət istiqamətlərindən biri olduğu, qeyd olunan istiqamətdə müvafiq işlərin aparıldığı vurğulanıb.

Şəhid ailələri, müharibə ilə əlaqədar əlilliyi olan şəxslərin mənzil və fərdi evlə təminat proqramının uğurla davam etdirildiyi bildirilib. Həmin kateqoriyalardan olan vətəndaşlara bu il daha 750, postmüharibə dövründə 5 min 250, ümumilikdə ötən dövrdə 14 min 50 mənzil və fərdi ev təqdim olunduğu qeyd olunub. Yeni mənzil və fərdi evlərin təqdim edilməsi tədbirlərinin qarşıdakı dövrdə də davam etdiriləcəyi bildirilib.

Sosial xidmətlər sahəsində görülən işlər, o cümlədən bu il 5 min 149 nəfərə evdə sosial-məişət xidməti göstərildiyi, 100 uşağın övladlığa verildiyi, reinteqrasiya tədbirləri nəticəsində dövlət uşaq müəssisələrindən 126 uşağın öz ailəsinə qaytarıldığı qeyd olunub. Cari ildə 2 min 247 imtiyazlı şəxsin, o cümlədən 300-dən



çox şəhid ailəsi üzvünün sanatoriya-kurort yollayışı ilə təmin edildiyi diqqətə çatdırılıb.

Uşaqların valideyn himayəsindən məhrum olmasının qarşısının alınması, “Himayədar ailə” qayğı modelinin tətbiqi istiqamətində görülən işlərdən bəhs olunub. “Şəhid övladlarının anaları ilə birgə səyahət və təlim proqramı”, “Qəhrəmanlarımız üçün yaşıl işıq” sosial-psixoloji dəstək layihəsinin həyata keçirildiyi qeyd olunub.

İclasda sosial xidmətlər, hüquq, beynəlxalq əlaqələr, ictimaiyyətlə əlaqələr və digər sahələrdə görülmüş işlər və qarşıda duran vəzifələr də müzakirə olunub.

***Zərifə BƏŞİRQIZI***
***XQ***

**5 Oktyabr Beynəlxalq Müəllimlər Günüdür**

# Yeniləşən Azərbaycan təhsilinin yeni uğurları



(əvvəli 1-ci səhifədə)

Statistikaya görə, Azərbaycanda 300 mindən artıq təhsil işçisi var. Bunun dörddə-üçü ümumi təhsil müəssisələrində (orta məktəblər) çalışır. Ümumi sayda qadın müəllimlər yarıdan bir qədər çoxdur. Ölkəmizdə təhsil islahatları uğurla həyata keçirilir. Təhsil ocaqlarının maddi-texniki bazası durmadan genişlənir. Təhsildə keyfiyyət göstəricilərinin yüksəlməsində müəllimlərin sertifikatlaşdırma imtahanları mühüm rol oynayır.

Daim öz üzərində işləyən, peşə ustalığını artıran pedaqoqlarımızın stimullaşdırılması diqqət mərkəzindədir. Bir neçə ay əvvəl Elm və Təhsil naziri Emin Əmrullayev "Sertifikatlaşdırma: peşəkar müəllim-keyfiyyətli təhsil" adlı tədbirdə çıxışı zamanı deyib ki, Azərbaycanda hər 3 müəllimdən 1-i 2023–2024-cü tədris ilində 1000 manat və daha yuxarı əməkhaqqı alacaq. Hazırda müəllimlərin 22 faizi 500 manata qədər, 48 faizi 500–1000 manat, 26 faizi 1000–1500 manat, 5 faizi 1500–2000 manat, 0,4 faizi 2000 manat və daha artıq maaş alır. Həvəsləndirmə tədbirlərinin tətbiqi də davam edir və getdikcə maaşlar da artacaq.

Göründüyü kimi, Azərbaycan cəmiyyətində müəllimlik, şəxsiyyəti gözəl və təsirli ifadələrlə qiymətləndirilən hörmətli və perspektivli peşədir. Prezident İlham Əliyev pedaqoq əməyini yüksək qiymətləndirərək deyib: "Azərbaycanın əldə etdiyi bütün nailiyyətlərin əsasında məhz müəllimin gərgin zəhməti və gündəlik fəaliyyəti durur".

Sabahımızın sahibləri olan nəsli yetişdirən, onların beyinlərini zəka, əxlaq, Vətən sevgisi nuruna qərq edən bütün müəllimlərimizi peşə bayramları münasibətilə təbrik edirik!

**XQ**



# Müqəddəs peşə sahibləri

**Müəllimlər Günü münasibətilə paytaxtın Nəsimi rayonunda keçirilən mərasimdə yeni nəslin bilikli, əxlaqlı və yurdsevər böyüməsində müəllimlərin müstəsna rolu, çətin və şərəfli əməyi qədirbilənliklə qeyd edildi.**

Nəsimi Rayon İcra hakimiyyətinə dəvət edilmiş pedaqoji kollektivlərin təmsilçilərini salamlayan icra hakimiyyətinin başçısı Asif Əsgərov onların timsalında ərazidəki təhsil ocaqlarının müəllimlərini peşə bayramı münasibətilə səmimi təbrik etdi, onlara müqəddəs fəaliyyətlərində daha böyük uğurlar arzuladı.

Rayon rəhbəri bildirdi, Ulu öndər Heydər Əliyevin müstəqil Azərbaycanda formalaşdırdığı milli təhsil strategiyası ölkəni tərəqqi yolu ilə irəli aparan yeni nəslin yetişdirilməsi ilə yanaşı, Qarabağı 30 illik işğaldan azad edən qəhrəman övladların yüksək vətənpərvərlik dəyərləri ilə tərbiyələndirilməsini də təmin etdi. Prezident İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın təhsilin çağdaş tələblər əsasında yeniləşdirilməsinə göstərdikləri yüksək diqqət və qayğı sahənin uğurlarını artırmaq üçün əlverişli şərait yaradıb.

İxtisasca müəllim olan Milli Məclisin deputatı Tamam Cəfərova, YAP rayon təşkilatının sədri Azər Süleymanov, Bakı Musiqi Kollecinin direktoru Nazim Kazımov, Əməkdar müəllim Sevda Quliyeva da həmkarlarını bayram münasibətilə təbrik etdilər, yeniləşən Azərbaycan məktəbinin uğurlarından, qarşıda duran məsul vəzifələrdən danışdılar.

**T.RÜSTƏMLİ**
**XQ**

# Laçında müəllimlərin bayram sevinci

**Bu tədris ilində ölkəmizin sayca artan məktəbləri sırasında işğaldan azad olunmuş ərazilərdəki yeni təhsil ocaqları da olub. Qarabağda 6 məktəbdə ilk zəng çalınıb. Həmin məktəblərdə, ümumilikdə, 780 şagird təhsilə cəlb edilib və onlara 94 müəllim dərs deyir.**



Prezident İlham Əliyevin ötən il sentyabrın 21-də Laçın şəhərinə səfəri zamanı üçrəngli dövlət bayrağımızı ucaltması, "Laçın" Qovşaq Yarımstansiyasının təməlqoyma mərasimində iştirakı, habelə rayonun işğaldan azad olunmuş Zabux və Sus kəndlərinin layihələndirilməsi və tikinti işləri, eləcə də Laçın şəhər 2 nömrəli tam orta və Zabux kənd orta məktəbinin bərpası və tikintisi üçün maliyyə vəsaiti ayrılması barədə sərəncamlar imzalaması bütün laçınlılar kimi, pedaqoji işçilər də hədsiz sevinc və minnətdarlıq hissi ilə qarşılayıblar. Peşə bayramı ərəfəsində isə rayondan gənc müəllim İqbal Mirzəyevin "Tərəqqi" medalına layiq görülməsi bütün laçınlı pedaqoqların əməyinə verilən yüksək qiymət kimi dəyərləndirilir.

Bu il Müəllimlər Gününü daha böyük fərəhlə qeyd edən Laçın rayonunun təhsil işçiləri onu da fəxrlə xatırlayırlar ki, avqustun 25-də Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva rayon mərkəzindəki 2 nömrəli tam orta məktəbin əsaslı təmirdən sonra açılışında, ertəsi gün isə Həkəri çayının sahilində keçirilən "Laçın Şəhəri Günü" tədbirlərində iştirak ediblər. Qeyd edək ki, daha öncə dövlət başçısı özünün 50 illik yubileyini Ağcabədi rayonunun Taxtakörpü qəsəbəsində laçınlı köçkünlərlə, Mehriban xanım isə ad gününü Laçın sakinləri ilə birlikdə keçiriblər.

Cari tədris ilində Laçındakı 2 nömrəli məktəbdə 137 şagirddən ibarət 11 sinif təşkil edilib və 16 müəllim burada tədris aparır. Məktəbin şagird tutumu daha çoxdur. Burada geniş laboratoriya və fənn kabinetləri, texnologiya və informatika otaqları, kitabxana, idman zalı, 182 yerlik akt zalı var.

Bir vaxtlar (6 yaşında) doğma yurdunu tərk etməyə məcbur olub Ağcabədiyə köçən, sonra Bakıda ali təhsil alan Şəbnəm Cəbrayıl ixtisasca ingilis dili müəllimidir. Laçına qayıtmasından qürur duyur. Bunun üçün Taxtakörpü məktəbindəki direktor vəzifəsindən imtina edib. Şəbnəm xanım təyinatla Taxtakörpüyə gedəndə həmin məktəbdə ali təhsilli ingilis dili müəllimi yox idi. Son dövrlərdə isə Azərbaycan Dillər Universitetinə həmin ixtisas üzrə 21 gənc yola salınıb. "Bunun müəllim kimi fəaliyyətimin nəticəsi olduğunu düşünürəm və ilk növbədə laçınlılar üçün uğurlu, faydalı olacağı qənaətindəyəm", – deyir Şəbnəm müəllim.

Onu da qeyd edək ki, Taxtakörpü məktəbindəki uğurlarına görə gənc direktor 2019-cu ildə "Azərbaycan Respublikasının qabaqcıl təhsil işçisi" döş nişanı ilə təltif edilib. İndi o, atası Tofiq Əhmədovun, nənəsi Şəfiqə Baxışovanın uzun illər çalışdıqları 2 nömrəli tam orta məktəbdə müəllim olmaqla yanaşı, həm də tədris işləri üzrə direktor müavini vəzifəsini icra edir.

Onun iki qızı – Dəniz və Günəş də Laçındakı təzə məktəbdə dərsə gedirlər. Dəniz 6-cı, Günəş isə 2-ci sinif şagirdidir. İşğal dövründə Şəbnəm müəllimgilin evində ermənilər yaşayıb və buranı yararsız hala salıblar. "Evimiz qoyub getdiyimiz kimi deyildi, təkcə dörd divarı olduğu kimi durudu. Ermənilər buralara müvəqqəti sahib çıxdıqlarını bildikləri üçün bizdən sonra evə heç əl gəzdirməyiblər. Atam rəssam idi, divarları öz əl işi ilə bəzəmişdi. Əl işləri solsa da, qalırdı. Bir vaxtlar altında oynadığımız ağacları da ermənilər qrad mərmiləri ilə dağıtmışdılar. Yerində yeni ağaclar əkmişik. Yenə, ərazi dəyişsə də, xatirələrimdə elə o vaxtlar olduğu kimi canlanır. Qızlarımla söhbətlərimdə o xatirələri çözələməkdən özümü saxlaya bilmirəm".

Laçında daha bir pedaqoq – ixtisasca ibtidai sinif müəllimi olan Ülviyyə Cəfərova hər səhər məktəbə 2 övladı ilə gedir. O həlelik müəllim kimi çalışmır, məktəbdə Uşaq Birliyinin yerli rəhbəri kimi fəaliyyət göstərir. Böyük qızı Fatimə 9-cu, Zəhra isə 3-cü sinifdə oxuyur. Fatimə peşə bayramları münasibətilə sevimli müəllimlərini təbrik edərək deyib: "Pedaqoqlarımıza çox güvənirəm. Məktəb də, buradakı mühit də əladır. Çox maraqlı dərnəklər təşkil edilib. Coğrafiya, Azərbaycan dili, riyaziyyat, ingilis dili fənlərini çox sevir, həvəslə oxuyuram. Müəllimlərimiz həm bu fənlər üzrə biliyimi, həm də, ümumiyyətlə, bacarıqlarımı artırmaqda mənə lazımi köməklik göstərirlər".

Onu da deyək ki, tezliklə Ədalət Məmmədov adına Zabux kənd tam orta məktəbində də tədris prosesinə start veriləcək. Orada təhsil alacaq şagirdlər məktəb fəaliyyətə başlayanadək müvəqqəti olaraq Laçın şəhərindəki yeni məktəbdə təhsillərini davam etdirirlər. Sus kəndində də məktəb tikintisinə başlanılıb.

Bəli, gözləri zəfər ziyası ilə işıqlanan laçınlı müəllimlər uzun fasilədən sonra doğma yurdda peşə bayramını keçirməkdən, şagirdlərinin zehnini nurlandırmaqdan son dərəcə məmnundurlar.



**Ə.ƏLİYEV**
**XQ**

**Bu gün ən müqəddəs peşə sahiblərinin bayramıdır, desək, yanılmarıq. Çünki hər birimizin üstündə müəllimlərin böyük əməyi var. Şagirdlərinin gözündə elm, bilik işığı yandıran müəllimlərdən ibarət fədakar bir kollektiv də azadlığına qovuşmuş Zəngilan rayonunun Ağalı kənd tam orta məktəbində çalışır.**



# Ağalıda dərs demək fədakarlıqdır



Bütün ölkədə olduğu kimi, Ağalı məktəbində də adi iş günlərindən biridir, amma bir qədər bayram əhvalı gündür. Məktəbin gənc direktoru Nərmin Həsənova dedi:

– İşğaldan azad olunmuş Zəngilan rayonunun Ağalı kənd orta məktəbinin rəhbəri kimi bu bayramı qeyd etmək bir başqa duyğudur. Məktəbimizin açılışı 2022-ci il sentyabrın 15-də olub. Şagirdlərimiz, müəllimlərimiz, bütün sakinlərimiz doğma yurdda yaşadıqları üçün çox sevinclidirlər. Bu, adamda, doğrudan da, çox gözəl ovqat yaradır. Həm də biz müəllimlərin üstündə sabaha hazırladığımız uşaqlara görə böyük məsuliyyət yükü var. Mən bundan əvvəl Zəngilan rayon 14 nömrəli məktəbdə tarix müəllimi işləmişəm. Direktorluğa imtahan verdim və qərara gəldim ki, Ağalı kənd orta məktəbinə gəlim, təklifimi qəbul etdilər, məni göndərdilər bu məktəbə.

Nərmin müəllim həyatının daha bir unudulmaz günündən də iftixarla bəhs etdi:

– Ötən il mayın 27-si idi. Biz həmin gün Ağalıda cənab Prezidentimizlə və Mehriban xanımla görüşdük. Görüş zamanı Mehriban xanım məni Ağalı kənd tam orta məktəbinə direktor təyin olunduğum üçün təbrik etdi və gənc ailəmizə öz xeyir-duasını verdi. Xatirə şəkilləri çəkdirdik. Həqiqətən, möhtəşəm gün idi.

Ağalı müəllimləri buraya ilk köçən sakinlərdir. Təzə məktəbin, pedaqoqların üzərinə çox məsul vəzifə düşüb. Məktəb 360 şagird yerlikdir. Şagirdlərə biliklə bərabər, doğma torpaqlarımızın tarixi haqqında daha çox məlumat verilməli, güclü vətənpərvərlik ruhu aşılanmalıdır ki, yurd yerlərinin qədrini bilsinlər, dostu-düşməni tanısınlar.

Nərmin müəllim onu da vurğuladı ki, şagird müəllimi sevməsə onun tədris etdiyi fənni oxuyub öyrənə bilməz: "Elə bilirəm ki, qısa müddətdə bunu edə bilmişik və edəcəklərimiz də hələ çoxdur. Buraya dönmüş ilk sakinlər kimi, həm təhsilin inkişafında, həm milli adət-ənənələrin qorunmasında və təbliğində üzərimizə çox böyük yük və məsuliyyət düşür".

Qeyd edək ki, 2021-ci ilin aprelin 26-da Prezident İlham Əliyev tərəfindən Zəngilanın 1-ci, 2-ci, 3-cü Ağalı kəndlərini əhatə edən birinci "Ağıllı kənd" layihəsinin təməli qoyulub. Qısa müddətdə "Ağıllı kənd" layihəsinin mərhələli açılışları olub. Azərbaycan Prezidenti İlham Əliyev və Birinci vitse-prezident Mehriban Əliyeva mərasimdə iştirak ediblər. Ağalı kənd sakinlərinin ilk qrupu 2022-ci il iyulun 19-da, ikinci qrupu isə sentyabrın 7-də və 10-da doğma yurdlarına qayıdıblar.

Direktor sonda onu da dedi ki, qarşıda görüləsi işlər çoxdur: "Ağalı kəndində təhsilin yüksək səviyyədə olmasına daha çox diqqət yetirəcəyik. Bunun üçün hər cür şərait yaradılıb. Məktəb hazırda mövcud olan bütün innovativ texnologiyalarla təmin edilib. Təhsil müəssisəsində olan avadanlıqlar müasir standartlara cavab verir, ağıllı və smart lövhələrimiz var. Həmçinin, kitabxanamız xeyli zəngindir".

**R.QURBANLI**
**XQ**

# Türkmənistanla iqtisadi tərəfdaşlıq genişlənir

**Azərbaycan–Türkmənistan iqtisadi əməkdaşlığının perspektivləri və birgə layihələr üzrə tərəfdaşlığın səmərəli nəticələri müzakirə edilib.**



Türkmənistan Prezidenti Sərdar Berdiməhəmmədov bu ölkədə səfərdə olan Azərbaycanın iqtisadiyyat naziri Mikayıl Cabbarovu qəbul edib. Qəbulda dövlət başçılarının dostluğa və həmrəyliyə əsaslanan Azərbaycan-Türkmənistan münasibətlərinə verdiyi önəm sayəsində çoxtərəfli əlaqələrin inkişaf etdiyi vurğulanıb.

Nazir Mikayıl Cabbarov Türkmənistana səfəri çərçivəsində bu ölkənin Nazirlər Kabineti sədrinin müavini, xarici işlər naziri Rəşid Meredovla görüşüb, iqtisadi əməkdaşlığın genişləndirilməsi perspektivləri müzakirə edilib.

Görüşdə vurğulanıb ki, Türkmənistanla qarşılıqlı münasibətlərin inkişaf etdirilməsində hər iki ölkənin rəhbərlərinin siyasi iradəsinin, yüksək səviyyəli səfərlərin, keçirilən görüş və tədbirlərin önəmli rolu var. Diqqətə çatdırılıb ki, ölkələrimiz arasında əməkdaşlığın güclənməsi fonunda iqtisadi-ticarət əlaqələri də genişlənir.

Görüşdə iki ölkə arasında energetika, nəqliyyat, investisiya, ticarət, kənd təsərrüfatı, mədəni, humanitar və digər sahələrdə əlaqələrin inkişafı imkanları diqqətə çatdırılıb.

Mikayıl Cabbarov "Türkmənqaz" Dövlət Konserninin rəhbəri Maksat Babayevlə də görüşüb. SOCAR-ın nümayəndələrinin də iştirak etdiyi görüşdə energetika sahəsində əməkdaşlığın genişləndirilməsi, karbohidrogen resurslarının birgə kəşfiyyatı və işlənməsi, potensial layihələrin reallaşdırılması barədə fikir mübadiləsi aparılıb.

Mikayıl Cabbarov və Türkmənistanın Nazirlər Kabineti sədrinin müavini, Azərbaycan–Türkmənistan Birgə Hökumətlərarası Komissiyasının həmsədri Batır Atdayev arasında keçirilən görüşdə ikitərəfli ticarət dövriyyəsinin artırılması, Komissiyanın növbəti iclasının keçirilməsi, işgüzar dairələr arasında əlaqələrin genişləndirilməsi sahəsində əməkdaşlığın inkişafı imkanları müzakirə olunub.

Nazir Mikayıl Cabbarov və bu ölkənin Nazirlər Kabineti sədrinin müavini Batır Amanov iki ölkə arasında enerji sahəsində əlaqələrin inkişaf perspektivləri, birgə layihələrin reallaşdırılması potensialını nəzərdən keçiriblər.

XQ

# Beynəlxalq Astronavtika Konqresində

**Oktyabrın 4-də 74-cü Beynəlxalq Astronavtika Konqresində "Səudiyyə Kosmik Agentliyi elm haqqında: eksperimentləri və təsirləri araşdırmaq" adlı plenar iclas keçirilib.**



Plenar iclasda çıxış edənlər bildiriblər ki, Səudiyyə Ərəbistanı elmə verdiyi töhfələri genişləndirmək üçün müxtəlif missiyaları yerinə yetirmək məqsədi daşıyan və bu yaxınlarda başladığı davamlı İnsan Kosmos Uçuş proqramının bir hissəsi olaraq, Səudiyyə Kosmik Agentliyi on günlük bir missiya üçün Beynəlxalq Kosmik Stansiyaya ilk ərəb qadın da daxil olmaqla astronavtlar göndərib.

Diqqətə çatdırılıb ki, astronavtlar Krallıqda tələbələrlə 3 interaktiv təhsil maarifləndirici eksperimentdə mikroqravitasiya mühitində 11 tədqiqat təcrübəsi həyata keçirib, insan tədqiqatı, hüceyrə elmləri və bulud toxumçuluğuna yönəlmiş eksperimentlərin ümumi sayını 14-ə çatdırıblar.

Müzakirə zamanı 12 mindən çox səudiyyəli tələbənin kosmos elmləri və onun Yerdəki həyatı yaxşılaşdırmaq potensialı haqqında anlayışlarını artırmaq üçün Beynəlxalq Kosmik Stansiyanın eksperimentlərində fəal iştirak etdikləri bildirilib.

***

**Dünən 74-cü Beynəlxalq Astronavtika Konqresində "Çin Kosmik Stansiyası qlobal kosmosun kəşfiyyatından faydalanır" adlı plenar iclas keçirilib.**

Tədbir Beynəlxalq Kosmik Agentliyin Asiya üzrə ofisinin direktoru Linqi Zu moderatorluğu ilə keçirilib.

İclasda Çinin Tiangong Kosmik Stansiyasının uğurlarından danışılıb. Bunun insanların kosmos haqqında düşüncələrində yeni bir mərhələ açacağı qeyd edilib.

Paneldə Çin Kosmik Stansiyasının müxtəlif aspektləri, o cümlədən, ümumi sxemi, tikinti prosesi, texniki göstəriciləri, kosmik elm və tədqiqat obyektlərinə baxışı müzakirə edilib. Çinin açıqlıq və paylaşma inkişaf konsepsiyasına sadiq qalmağa davam edəcəyi və kosmosdan dinc istifadəyə sadiq olan ölkələr və regionlarla daha çox və daha dərin praqmatik əməkdaşlıq edəcəyi vurğulanıb.

***

**Oktyabrın 4-də 74-cü Beynəlxalq Astronavtika Konqresi çərçivəsində ADA Universitetinin tələbələri ilə astronavtlar arasında görüş keçirilib.**

Tədbirin açılışında ADA Universitetinin prorektoru Fariz İsmayılzadə çıxış edib. Daha sonra Azərbaycan Respublikasının Kosmik Agentliyinin təhsil meneceri İmran Muxtarov tərəfindən tələbələrə müvafiq qurumun fəaliyyət istiqamətləri, ölkəmizdə keçirilən 74-cü Beynəlxalq Astronavtika Konqresi və "Beynəlxalq astronavtlar proqramı" haqqında ətraflı məlumat verilib.

Gənclərlə interaktiv sual-cavab formatında aparılan görüşdə ABŞ-lı astronavt John-David Bartoe, Ronald J.Garan, Russell L.Schveickart, rumıniyalı astronavt Dumitru-Dorin Prunariu və BƏƏ-li astronavt Hazzaa Al-Mansoori kosmosa səyahət və kosmik missiyaları ilə bağlı təəssüratlarını tələbələrlə bölüşüb və sualları cavablandırıblar.

Qeyd edək ki, Bakıda keçiriləcək konqres çərçivəsində çoxsaylı texniki sessiya və konfranslar təşkil edilib. Konqresdə kosmos sahəsi üzrə ölkələrin öz fəaliyyətlərini müzakirə etmək, biznes əlaqələri qurmaq imkanları yaradılıb. Bu, təkcə Cənubi Qafqazı deyil, həm də Türkiyəni, Mərkəzi Asiya və Yaxın Şərq ölkələrini əhatə etməklə Azərbaycanın və regionun akademik və biznes sahəsi üzrə kosmik sektorun ekspertləri və liderləri ilə əlaqə yaratmaq üçün unikal şansdır.

Nəzərə çatdırılıb ki, konqresin tərkib hissəsi "Beynəlxalq astronavtlar proqramı" "Kosmos və Sağlamlıq", "Kosmos və İnklüsivlik", "Kosmos və STEAM", "Astronavtların həyat və fəaliyyətinə həsr olunmuş brifinqlər" silsiləsindən ibarət olub, müxtəlif ali təhsil müəssisələri, elm tədqiqat institutları və gənclər mərkəzlərində məktəblilər, tələbələr, şəhid və qazi övladları, xüsusi qayğıya ehtiyacı olan uşaqlar və gənc alimlər də daxil olmaqla 3 mindən çox Azərbaycan gəncinin iştirakı ilə görüşlərin keçirilməsi nəzərdə tutur.

Xatırladaq ki, gənclər arasında kosmos elminin tərənnümü, yüksək texnologiyalara marağın artırılması, milli kosmik ekosistemin təşviqi proqramın əsas məqsədlərindəndir.

**Zəfər yolçuları**

# Daşaltı və Edilli şəhidləri son mənzilə qovuşdular

**Otuz bir il əvvəl Şuşada – Daşaltı uğrunda gedən döyüşlərdə şəhid olan Veysəl Qasımov İkinci Şəhidlər xiyabanında torpağa tapşırılıb.**



Dəfn mərasimində şəhidin ailə üzvləri ilə yanaşı, döyüş yoldaşları, Xətai rayon sakinləri, hökumət və ictimaiyyət nümayəndələri, şəhid ailələri, qazilər və media nümayəndələri iştirak ediblər.

Qeyd edək ki, 1963-cü il noyabrın 17-də Bakıda anadan olan Veysəl Qasımov 1992-ci il yanvarın 26-da Daşaltı əməliyyatı zamanı şəhid olub.

Xatırladaq ki, ötən ay Birinci Qarabağ müharibəsində itkin düşmüş və şəxsiyyətləri müəyyən edilmiş daha 10 nəfərin meyit qalıqlarının eyniləşdirilməsinə nail olunub. Onlardan biri də şəhid Veysəl Qasımovdur.



**Otuz il əvvəl Füzuli uğrunda gedən döyüşlərdə itkin düşən şəhid Tairov Seyfulla Veytulla oğlunun Edilli kəndində kütləvi məzarlıqda aşkarlanan nəşinin qalıqları doğulduğu Saatlı rayonunda torpağa tapşırılıb.**

Qeyd edək ki, Tairov Seyfulla Veytulla oğlu 1973-cü ildə Saatlı rayonu Cəfərxan kəndində dünyaya göz açıb. 1992-ci ildən döyüşlərə qoşulan Seyfulla 993-cü il avqustun 31-də Füzuli rayonunun Kürdmahmudlu kəndindəki döyüşdə itkin düşüb. Onun nəşinin qalıqları ötən il Xocavənd rayonunun Edilli kəndində tapılan 12 şəxsin basdırıldığı kütləvi məzarlıqda aşkarlanıb.

XQ

# İran Prezidenti Xələf Xələfovu qəbul edib



**İran Prezidenti İbrahim Rəisi Tehranda səfərdə olan Azərbaycan Respublikası Prezidentinin xüsusi tapşırıqlar üzrə nümayəndəsi Xələf Xələfovu qəbul edib.**

Görüşdə ikitərəfli münasibətlər, regiondakı vəziyyət müzakirə edilib.

XQ

# Ayxan Hacızadə Kolonnanın saxta iddialarını cavablandırıb

**Fransanın erməni sakinlərinin məcburi köçürülməsi ilə bağlı iddiaları BMT, Beynəlxalq Qırmızı Xaç Komitəsi, BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığının (UNHCR) və digər təşkilatların məlumatları ilə ziddiyyət təşkil edir".**

Bu barədə Azərbaycanın Xarici İşlər Nazirliyinin mətbuat xidmətinin rəhbəri Ayxan Hacızadə Fransa XİN başçısı Ketrin Kolonnanın iddialarına öz "X" səhifəsində cavabında bildirib.

"Fransanı azərbaycanlılara qarşı kütləvi deportasiyalar, müharibə cinayətləri və kütləvi qətliamlar heç vaxt qayğılandırmayıb", deyə o qeyd edib.

XQ

# Şeyxülislamın ICESCO-nun Baş direktoru ilə görüşü



**Oktyabrın 4-də Qafqaz Müsəlmanları İdarəsinin sədri, Şeyxülislam Allahşükür Paşazadə ölkəmizdə səfərdə olan İslam Dünyası Təhsil, Elm və Mədəniyyət Təşkilatı – ICESCO-nun Baş direktoru Salim bin Məhəmməd əl-Maliki ilə görüşüb.**

Qonağı səmimi salamlayan Şeyxülislam nüfuzlu beynəlxalq təşkilatın Azərbaycanın haqlı mövqeyinin dünyaya çatdırılması istiqamətindəki fəaliyyətini yüksək qiymətləndirib. QMİ sədri Şuşa şəhərinin ICESCO-nun xətti ilə 2024-cü ildə İslam dünyasının mədəniyyət paytaxtı elan olunmasını da mühüm hadisə kimi dəyərləndirib.

Şeyxülislam Allahşükür Paşazadə Bakıda keçirilməsi planlaşdırılan Dünya Dini Liderlərinin III Samiti barədə də geniş məlumat verib, ICESCO-nun bu tədbirdə mötəbər heyətlə iştirak edəcəyinə inandığını bildirib.

Səmimi qarşılanmaya görə QMİ sədrinə təşəkkür edən ICESCO-nun Baş direktoru Salim bin Məhəmməd əl-Maliki dünyada nüfuzlu din xadimi kimi tanınan Allahşükür Paşazadə ilə növbəti dəfə görüşmək fürsəti əldə etməkdən məmnunluq duyduğunu dilə gətirib.

Salim bin Məhəmməd əl-Malik Şuşanın 2024-cü ildə İslam dünyasının mədəniyyət paytaxtı elan edilməsinin Azərbaycan həqiqətlərinin müsəlman dünyasına çatdırılmasına gözəl bir vəsilə olacağına inandığını qeyd edib. O bildirib ki, ICESCO Azərbaycanda öz regional nümayəndəliyini də açmağı planlaşdırır. Qonaq bildirib ki, Dünya Dini Liderlərinin Bakıda planlaşdırılan III Sammiti ilə bağlı ICESCO QMİ ilə strateji əməkdaşlıqda maraqlıdır.

# Beynəlxalq Memarlıq Müsabiqəsi

**Oktyabrın 4-də ümummilli lider Heydər Əliyevin 100 illiyinə həsr edilmiş VI Bakı Beynəlxalq Memarlıq Müsabiqəsinə təqdim olunmuş işlərin sərgisinin açılış mərasimi keçirilib.**

Sonra KİV nümayəndələri üçün mətbuat konfransı keçirilib.

Azərbaycan Memarlar İttifaqının İdarə Heyətinin sədri Elbay Qasımzadə müsabiqəyə təqdim olunan layihələrin keyfiyyəti, sayı, eləcə də iştirakçıların təmsil etdikləri ölkələr barədə məlumat verib.

Diqqətə çatdırılıb ki, bu il müsabiqəyə dünyanın 26 ölkəsindən – ABŞ, Azərbaycan, Banqladeş, Braziliya, Cənubi Afrika Respublikası, Çexiya, Çin, Fransa, Gürcüstan, Hindistan, İspaniya, İtaliya, Cənubi Koreya, Özbəkistan, Qazaxıstan, Qırğızıstan, Madaqaskar, Malayziya, Misir, Portuqaliya, Rumıniya, Rusiya, Serbiya, Türkiyə, Yunanıstan, Vyetnamdan 200-dən çox layihə təqdim olunub. İştirakçıların layihələrinin qiymətləndirilməsi üçün aşağıdakı tərkibdə Beynəlxalq münsiflər heyəti dəvət olunub: Deniz İncedayi (Türkiyə), Kevin Bingham (Cənubi Afrika), Divya Kuş (Hindistan), Cüzeppe Kappoçin (İtaliya) və Elbay Qasımzadə (Azərbaycan).

Mətbuat konfransında mədəniyyət nazirinin müavini Səadət Yusifova 2013-cü ildən Mədəniyyət Nazirliyinin Bakı Beynəlxalq Memarlıq Müsabiqəsinin həmtəsisçisi və həmtəşkilatçısı olduğunu bildirib.

Müsabiqə qaliblərinin elan olunması mərasimi oktyabrın 6-da nəzərdə tutulub.

BEYNƏLXALQ HƏYAT

# ABŞ və Çinin Asiyada təhlükəsizliyə fərqli yanaşması

**ABŞ-Tayvan təhlükəsizlik konfransı Virciniya ştatının Uilyamsburq şəhərində keçirilib və burada iştirakçılar "Çin təhdidinə" cavab axtarıblar. ABŞ dövlət katibi Entoni Blinkenin dediyi kimi, daha çox ölkə Pekini Tayvana qarşı güc tətbiq etməkdən çəkindirir və "dünya üçün risklər qeyri-adi dərəcədə yüksəkdir". Öz növbəsində, Çin lideri Si Cinpinin ÇXR-in yaranmasının 74-cü ildönümü münasibətilə dediyi kimi, "heç bir qüvvə Tayvanla tam birləşməyə mane olmayacaq". ABŞ-ı əsas təhlükə kimi göstərən Pekin Rusiya prezidenti Vladimir Putinin də qatılacağı "Bir kəmər, bir yol" sammitində regionun dinc inteqrasiyası üçün yenilənmiş strategiyanı təqdim edəcək.**



Oktyabrın 1-dən 3-dək Uilyamsburqda keçirilən təhlükəsizlik, müdafiə və hərbi sənaye sahəsində əməkdaşlıq üzrə Amerika-Tayvan konfransı ÇXR-in yaranmasının 74-cü ildönümü münasibətilə bir həftəlik şənliklərə təsadüf edib. Bu müddət ərzində ÇXR-in lideri Si Cinpin Taipey ilə münasibətlər barədə yeni bir açıqlama verib. "Biz "vahid Çin" prinsipinə əməl etməliyik", – deyən Çin lideri Pekində Böyük Xalq Zalında keçirilən ziyafətdə materik Çin və Tayvanın birləşməsini "heç bir qüvvənin qarşısını ala bilməyəcəyi tarixi qaçılmazlıq" adlandırıb. Çinin ali rəhbərliyinin üzvlərinin və Pekində akkreditə olunmuş xarici diplomatların iştirakı ilə Si Cinpin "güclü ölkə qurmaq və milləti dirçəltmək kimi böyük məqsədə doğru davamlı şəkildə irəliləyəcəyinə" söz verib.

Bu arada, Uilyamsburqda keçirilən ABŞ-Tayvan konfransı dəyişən geosiyasi şəraitdə Vaşinqton və Taypeyin Si Cinpinin bayram nitqində bəhs etdiyi "vahid Çin" yaratmaq ssenarisinin həyata keçirilməsinin qarşısını almaq üçün növbəti cəhdi oldu. Konfransın proqramına Tayvanın təhlükəsizliyinə təhdidlərin müzakirəsi, hərbi-sənaye sahəsində ikitərəfli əməkdaşlıq, adanın nəqliyyat, telekommunikasiya və enerji sektorlarında kritik infrastruktur problemləri, habelə Tayvan boğazında hərbi münaqişə risklərinin modelləşdirilməsi daxildir. Məsələlərdən biri də 2024-cü ilin yanvarında keçiriləcək Tayvan administrasiyasının rəhbəri seçkilərinə hazırlıq olub.

Forumun tayvanlı iştirakçıları arasında yüksək rütbəli hazırkı və istefada olan siyasətçilər və hərbi zabitlər, habelə seçkilərdə əsas namizədlərdən biri, ABŞ-a səfəri oktyabrın 5-dək davam edəcək Tayvan Xalq Partiyasının sədri Ke Venje də var. Birləşmiş Ştatları Dövlət Departamenti və Pentaqon rəsmiləri, həmçinin ABŞ-ın sabiq hərbçiləri təmsil edirdilər. Pekinin Tayvanla dinc birləşmək istəyi ilə bağlı bəyanatlarına baxmayaraq, Vaşinqton Çini adanı ələ keçirmək və bununla da Hind-Sakit okean regionunda böyük müharibəyə başlamağa qadir qüvvə kimi görür. Bunu ABŞ dövlət katibi Entoni Blinken Uilyamsburqda keçirilən forum ərəfəsində "Atlantic" jurnalına müsahibəsində deyib. O, həmçinin bildirib ki, getdikcə daha çox ölkə Pekinə güc tətbiq etməmək barədə xəbərdarlıq edir: "Təkcə son bir ildə biz dünya ölkələri arasında həm regionda, həm də ondan kənarda çox əhəmiyyətli fikirlərin uzlaşmasının şahidi olduq. Pekinə deyilir: bunu etmə. Təkcə Tayvan üçün deyil, sözün əsl mənasında bütün təhdidlər dünya üçün olduqca yüksəkdir".

Tayvan ABŞ və digər ölkələr üçün niyə önəmlidir? Dünyada konteyner daşımalarının 50 faizi hər gün Tayvan boğazından keçir. Yarımkeçiricilərin 70 faizi adada istehsal olunur. Amerika diplomatiyasının rəhbəri xəbərdar edib ki, Çinin hərəkətləri nəticəsində Tayvan ətrafında böhran yaranarsa, qlobal iqtisadi böhran yaranacaq. Dövlət katibinin sözlərinə görə, "Çin dünya ölkələrindən getdikcə daha çox bu mesajı eşidir: qarışıqlıq yaratmayın". Hansı ölkənin – Rusiya və ya Çinin – hazırda "Amerika və Qərbin demokratik dəyərlərinə ən böyük təhlükə" olduğunu soruşduqda, Dövlət Departamentinin rəhbəri bu çağırışları "təbiətcə çox fərqli" adlandırıb. E.Blinken deyib ki, hərbi, iqtisadi və diplomatik potensialı baxımından Çin dünya nizamını müəyyən etmək üçün Rusiyadan daha böyük imkanlara malikdir: "Bununla belə, onların can atdıqları dünya nizamı mahiyyət etibarilə qeyri-liberaldır".

Çin isə məsələyə dair tam fərqli mövqeyə malik olduğunu açıqlayır. Bazar ertəsi Çinin Taylanddakı səfiri Han Çjiçyan "Bangkok Post" qəzetinə verdiyi müsahibədə bildirib ki, "ABŞ Çin Xalq Respublikasının inkişafının qarşısını almaq və bununla da sülh və sabitliyi təhlükə altına almaq üçün bölgədə qəsdən münaqişələri qızışdırır". "ABŞ-ın Hind-Sakit Okean strategiyası əslində Çini cilovlamaq üçün siyasi alətdir",- deyən çinli diplomat, həmçinin vurğulayıb ki, Çinin inkişafını məhdudlaşdırmaq cəhdi uğur qazanmayacaq və Pekin ölkələrlə qarşılıqlı faydalı əməkdaşlıq siyasətini davam etdirəcək. Bundan başqa, ABŞ-ı əsas təhlükə kimi göstərən Pekin Rusiya prezidenti Vladimir Putinin də qatılacağı onuncu yubiley "Bir kəmər, bir yol" sammitində Avrasiyada dinc inteqrasiya üçün yenilənmiş strategiyanı təqdim edəcək. Yeni sənədin Vaşinqtonun Asiya üçün təklif etdiyi təhlükəsizlik strategiyasına alternativ olacağı vurğulanır.

***S.ELAY***
***XQ***

# "Qlobal Cənub" "Kollektiv Qərb"ə qarşı

*Kimin üstün gələcəyini zaman göstərəcək*

**Planetimiz yeni dünya düzəninin optimal modellərinin axtarışındadır. Köhnə qanunlar işləmir, yeni qaydalar isə hələ müəyyən olunmayıb. Dünyada ya qanunun, ya da gücün haqlı olacağı bir düzən qurula bilər. Ümid edək ki, nəhayət, qanun şah olacaq.**

Eyni zamanda, həyat yeni fürsət və imkanlar yaradır ki, onları düzgün dəyələndirən dövlətlərin və xalqların rəqiblərindən daha irəli çıxmaq şansları böyükdür. Özünü, milli dəyərlərini qorumaq uğrunda mübarizə günbəgün gərginləşir. Geridə qalmaq uduzmağa bərabərdir.

Hazırda dünya siyasətində iki böyük güc mərkəzi nəzərə çarpır. Birinci qrupa ABŞ başda olmaqla Qərbin sənayecə yüksək inkişaf etmiş dövlətləri daxildir. Bu qrupu bir çoxları "Qlobal şimal", yaxud "Kollektiv qərb" adlandırırlar.

İkinci qrupa isə əsasən BRİKS (Braziliya, Rusiya, Hindistan, Çin və Cənubi Afrika Respublikası) və bu qurumun ətrafında bir araya gələn çox sayda inkişaf etməkdə olan ölkələr aid edilir. Bu qrupu çox vaxt "Qlobal cənub" adlandırırlar.

Lakin cənub anlayışı burada şərtidir. Belə ki, BRİKS-in aparıcı dövlətlərindən olan Rusiya Federasiyası faktiki olaraq şimal ölkəsidir. Amma, bu məsələ mahiyyəti heç də dəyişmir. "Qlobal cənub"un əhatə dairəsi çox genişdir. Xəritəyə nəzər yetirsək görərik ki, BRİKS, demək olar ki bütün qitələri təmsil edir.

"Kollektiv qərb" mövcud status-kvonu saxlamaq və davam etdirmək niyyətindədir. Vaşinqton və yaxın müttəfiqləri faktiki olaraq İkinci Dünya müharibəsindən sonra dünyanı "öz arşınları ilə ölçürlər" və planetin qaynar ictimai-siyasi hadisələrini istədikləri kimi idarə edirlər. Amma, son illər artıq Çinin dünyada ikinci böyük gücə çevrilməsi baş verir və bu reallıq qüvvələr nisbətini dəyişir.

"Qlobal cənub" "birqütblü dünya"nın siyasi, iqtisadi və hərbi dominantlığı ilə heç cür razılaşmaq istəmir. Hazırda böyük güclərin arasında üç şeyə nəzarət uğrunda kəskin mübarizə gedir. Bunlar iri nəqliyyat dəhlizlərinə və xammal mənbələrinə nəzarət, eləcə də yeni texnologiyalar sahəsində lider mövqelər qazanmaqdır. Bunlara sahib olanlar dünyanı idarə etmək iqtidarına olacaq.

Bakı Dövlət Universitetinni Xarici ölkələrin iqtisadi-siyasi coğrafiyası və turizm kafedrasının müdiri, professor Aydın İbrahimov bildirdi ki, qarşıdan gələn dövrdə iqtisadi müstəvidə "Qlobal cənub"un, yaxud belə demək caizsə, qlobal çoxluğun yüksəlişinin şahidi olacağıq. Bu ölkələr "yerli və milli" texnologiyaları inkişaf etdirmək üçün öz aralarında əməkdaşlığı gücləndiriblər. "Kollektiv qərb" onların sürətli inkişafını hər vəchlə yavaşıtmağa çalışsa da, buna nail olmaq çox çətindir.

Professorun fikrincə, Birləşmiş Millətlər Təşkilatı Baş Assambleyasının (UNGA) 78-ci sessiyası ədalət, hüquq və bərabərliyi müdafiə edən "qlobal çoxluğ"un güclənməsini və qətiyyətini nümayiş etdirən bir sıra uğurlu diplomatik fəaliyyətlər və ikitərəfli görüşlərlə yekunlaşıb.

A.İbrahimov sonra vurğuladı ki, 193 üzv ölkəni əhatə edən BMT-də "Qlobal cənub" artıq 123 üzv ölkə ilə təmsil olunur. Bu ölkələrdə təqribən 6,5 milyard insan yaşayır. "Qlobal cənub" 93 milyon kvadrat kilometr ərazidə fəaliyyət göstərir. "Kollektiv qərb" isə 58 milyon kvadrat kilometr (22 milyon kvadrat mil) ərazini əhatə edir.



"Qlobal şimal" 1,5 milyard əhalini təmsil edir. Deməli, Qərbin Cənubla müqayisədə insan resursları xeyli kasaddır. Göründüyü kimi, fərq dördün birə nisbətində Cənubun xeyrinədir.

Digər rəqəmlərə də nəzər yetirməyə dəyər. Belə ki, bir kvadrat kilometrə düşən əhalinin sayı "Qlobal şimal"da 27,4 nəfərdirsə, "Qlobal cənub"da bu rəqəm 69,2 nəfərdir.

Önümüzdəki dövr ərzində "Qlobal cənub"un təhsil, ixtisaslı məşğulluq, innovasiya, elm və texnologiya sahələrində iddialarınının və real göstəricilərinin artıracağını görəcəyik. Konkret uğur isə, bu dövlətlərdə istehsal olunan əlavə dəyər vergisinin və yüksək texnologiyalı məhsulların sürətinin artması olacaq.

Əlbəttə, hər şeyin zamana ehtiyacı var. Bununla bərabər, nəzərdən qaçırmaq olmaz ki, bu gün planetimizdə yeni dünya düzəninin formalaşması prosesi sürətlənib və bütün millətlər və dövlətlər sivil dünyanın tərəqqi və intibah "qatar"ında özlərinə layiqli yer tutmağa çalışırlar.

Bu prosesdə Türkiyənin liderliyilə türk dövlətlərinin dünyadakı qlobal siyasi proseslərdə fəallaşması bizi sevindirməyə bilməz. Türk xalqlarının yüksək intellekti, zəkası, zəngin dövlətçilik ənənələri gələcəyə nikbin baxmağa əsaslar verir.

***Məsaim ABDULLAYEV***
***XQ***


# "Azərsu" Açıq Səhmdar Cəmiyyəti

Füzuli şəhərinin xarici su təchizatı, kanalizasiya və yağış suları sistemlərinin yaradılması işlərinin satın alınması üçün

## AÇIQ TENDER ELAN EDİR

Tender iştirakçılarına təklif olunur ki, öz tender təkliflərini möhürlənib imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları oxşar təcrübəyə, lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər aşağıdakı məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu Bakı şəhəri, Moskva prospekti 67 nömrəli ünvanda yerləşən "Azərsu" Açıq Səhmdar Cəmiyyətinin satınalmaların təşkili və müqavilələrin idarə olunması şöbəsindən (əlaqələndirici şəxs- Abışev Murad Çingiz oğlundan, telefon- + 99 412 431 47 67/87 – daxili 1087 E-mail: murad.abishev@azersu.az və Musayev Məmmədyar Ağa oğlundan, telefon: + 99 412 431 47 67 – daxili 2288, E-mail: mammadyar.musayev@azersu.az) ala bilərlər.

İşlərin qısa təsviri:
Su təchizatı, kanalizasiya və digər əlaqədar işlər.
Tenderdə iştirak haqqı 500,00 (beş yüz manat) manatdır.
İştirak haqqı heç bir halda geri qaytarılmır.
Təşkilat- "Azərsu" Açıq Səhmdar Cəmiyyəti
VÖEN- 9900001751
Bank- "Kapital bank" ASC-nin 1 saylı Nəsimi filialı
Kod- 200112
VÖEN- 9900003611
Yerli valyutada hesab nömrəsi
AZ65AIIB33070019441100216111
Xarici valyutada hesab nömrəsi
AZ55AIIB33170018401100216111
M/h: AZ37NABZ01350100000000001944
SWIFT AIIBAZ2X

İştirakçıları tenderdə iştirak üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

Tenderdə iştirak etmək üçün ərizə.

İştirak haqqının ödənilməsini təsdiq edən bank sənədi.

Tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 65 bank günü ərzində qüvvədə olmalıdır).

Tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (təminatın qüvvədə olma müddəti tender təklifinin qüvvədə olma müddətindən 30 bank günü çox olmalıdır).

Tender iştirakçısının tam adı, nizamnaməsi (hüquqi şəxslər üçün), qeydiyyatdan keçdiyi rekvizitləri.

Malgöndərənin (podratçının) işin icrası üçün müqavilə imzalayacağı subpodratçı barədə konkret subpodratçının adı göstərilməklə məlumatlar (əlavə №19).

Malgöndərənin (podratçının) son bir ildəki (əgər daha az müddət fəaliyyət göstərirsə, bütün fəaliyyəti dövründəki) maliyyə vəziyyəti barədə bank tərəfindən verilmiş arayış.

Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə aid yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin, habelə son bir il ərzində (fəaliyyətini dayandırdığı müddət nəzərə alınmadan) vergi ödəyicisinin Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş vəzifələrinin yerinə yetirilməməsi hallarının mövcud olmaması barədə arayış.

İddiaçının satınalma müqaviləsini bağlamaq səlahiyyətinin olması (şəxsin səlahiyyətli olması barədə əmr təqdim edilməlidir).

Öz əmlakından sərbəst və məhdudiyyətsiz istifadə etmək imkanı, habelə ödəmə qabiliyyəti olması barədə arayış.

Müflis elan olunmaması, əmlakı üzərinə həbs qoyulmaması, ödənişə yönəlmiş girovun olmaması, məhkəmənin qərarı ilə kommersiya fəaliyyəti dayandırılmış şəxs olmaması barədə arayış (Ədliyyə Nazirliyindən alınmış müvafiq arayış).

Satınalma prosedurlarının başlanmasından əvvəlki 5 il ərzində özlərinin, habelə işlərini idarə edənlərin, qulluqçularının peşəkar fəaliyyətləri, yaxud satınalma müqaviləsinin bağlanması üçün ixtisas göstəricilərini yanlış göstərmələri ilə əlaqədar cinayətə görə məhkum olunmaması, yaxud onların müvafiq peşə fəaliyyətləri ilə məşğul olmasının məhkəmə qaydasında qadağan edilməməsi barədə arayış.

Azərbaycan Respublikasının dövlət standartlarına uyğun olaraq I və II məsuliyyət səviyyəli bina və qurğuların tikinti-quraşdırma işlərinin yerinə yetirilməsi üçün verilmiş xüsusi razılıq (lisenziya) və onun əsasında həyata keçirilməsinə icazə verilən işlərin siyahısı.

Malgöndərənin (podratçının) son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq edilmiş maliyyə hesabatının surəti (vergi orqanının rəsmi blankında və ya elektron sənədin notarial qaydada təsdiqlənmiş surəti təqdim edilməlidir).

Mühasibat balansı, mənfəət və zərər haqqında hesabat. Kənar audit tərəfindən tərtib olunmuş son bir ildəki audit hesabatları (əgər varsa).

Satınalma müqaviləsinin icrasını təmin etmək üçün müvafiq sahədə peşəkarlığının, təcrübəsinin, texniki və maliyyə imkanlarının, işçi qüvvəsinin, idarəetmə səriştəsinin, etibarlılığının olması (son beş il (1 yanvar 2018 - ci il 31 dekabr 2022-ci il ) ərzində ümumi məbləği 15 milyon manatdan az olmayan, oxşar işi əhatə edən (oxşarlıq layihə və texniki spesifikasiyalarda təsvir edilən fiziki ölçüyə, mürəkkəbliyə, metodlara, texnologiyaya və digər xüsusiyyətlərə əsaslanmalıdır) baş podratçı kimi ən azı iki sifarişi qənaətbəxş şəkildə icra etməsi haqda məlumat və təsdiqedici sənədlər, son beş il (1 yanvar 2018-ci il 31 dekabr 2022-ci il ) ərzində ən azı 10 milyon manat dövriyyə tələb olunur) və TMV-nin 1.6-cı bəndində tələb olunan digər tələblər. Tenderdə iştirak üçün iki və ya daha artıq tərəfdaş şirkətdən ibarət birgə müəssisə yaratdıqda, TMV-nin 1-ci və 2-ci bəndlərində tələb olunan sənədlər ən azı bir müəssisə tərəfindən təqdim edilməlidir.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (1 əsli və 1 surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikası qanununun tələblərinə uyğun keçiriləcəkdir.

İştirakçılar tenderdə iştirak üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) 16 noyabr 2023-cü il saat 16.00-a, tender təklifi və bank təminatını isə möhürlənmiş ikiqat zərfdə 24 noyabr 2023-cü il saat 16.00-a qədər Bakı şəhəri, Moskva prospekti 67 nömrəli ünvanda yerləşən "Azərsu" Açıq Səhmdar Cəmiyyətinin satınalmaların təşkili və müqavilələrin idarə olunması şöbəsinə təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

Tender iştirakçılarının təklifləri Bakı şəhəri, Moskva prospekti 67 nömrəli ünvanda yerləşən "Azərsu" Açıq Səhmdar Cəmiyyətində 27 noyabr 2023-cü il saat 16.00-da açılacaqdır.

Tender iştirakçılarının səlahiyyətli nümayəndələri zərflərin açılışında iştirak edə bilərlər.

***Tender komissiyası***


İsveç gözləntisi

# "Qarabağ" start üstünlüyünü qoruya biləcəkmi?

**Bəlkə də, nadir təsadüfdür: Azərbaycan çempionunun baş məşqçisi Qurban Qurbanov bu gün öz futbolçuları ilə birlikdə hələ dünənədək oyunçusu olmuş oğlu Musa Qurbanlının legioner həyatı yaşadığı İsveçdə səfərdədir. Getdikcə yad ölkə mühitinə uyğunlaşan və əsas heyətdə yerini möhkəmləndirən istedadlı hücumçu, göz dəyməsin, paytaxt Stokholmun "Yurqorden" klubunda özünü inamlı hiss edir.**

Məşqçi isə komandasını UEFA Avropa Liqasının qrup mərhələsinin ikinci turu çərçivəsində Geteborq şəhərində yerli "Hekken" klubu ilə oyuna aparmışdır. "Yurqorden"in məşq və yarış cədvəli imkan versə, Qurbanlı bu axşam həmin şəhərdəki "Ullevi" stadionunun tribunasında olmağa can atacaq. Musa onu böyük futbola pərvazlandıran "Qarabağ"ın oyununu İsveçdə izləmək imkanını qaçırmaq istəməz.




Hakimin elə start işarəsindən dərhal sonra görüşün son dərəcə kəskin xarakter alacağına şəkk-şübhə yoxdur. Qrup sınaqlarına Bakıda Norveçin "Molde" klubu üzərində qələbə ilə başlayan (1:0) və səfərə "H" qrupunda turnir cədvəlinin iki liderindən biri kimi yola düşən "Qarabağ"dan fərqli olaraq, "Hekken" birinci turda Leverkuzendə yerli "Bayer" qarşısında açıq-aşkar aciz qalmışdır (0:4). Deməli, isveçlilər almanlardan aldıqları ağır zərbədən sonra azarkeşləri qarşısında özlərini doğrultmaq, qrupdan "sağ" çıxmaq uğrunda mübarizədə imkanlarını daha da pisləşdirməmək üçün əllərindən gələni edəcəklər.

"Qarabağ" da öz növbəsində startda qazandığı üstünlüyü bir qədər də artırmağın bu məqamda necə böyük əhəmiyyət daşıdığını yaxşı bilir. Evdə qələbədən sonra səfərdə hətta heç-heçə də məqbul nəticə olar. Amma burası da var ki, bizim çempion istənilən şəraitdə və vəziyyətdə "doğma divarlar" arasında və ya özgə şəhərdə oynamasından asılı olmayaraq, həmişə xoşbəxtliyi rəqib qapısında axtarır və çox vaxt da tapır!

Ağdam komandasının sentyabrın 29-da milli çempionatımızın 8-ci turu çərçivəsində "Sumqayıt"la görüşdə qibtəediləcək məhsuldarlıq nümayiş etdirib, beş cavabsız qolla qələbə qazanması da bugünkü oyun ərəfəsində yaxşı əlamətdir. Hesabdan da göründüyü kimi, qalib komanda hücum əməliyyatlarını yüksək peşəkarlıq və dəqiqliklə həyata keçirmiş, arxa xətdə də səhvsiz oynamışdır. Üstəlik də, qələbə həmin gün 34 yaşı tamam olmuş "Qarabağ"ın kapitanı Maksim Medvedevin doğum gününə oyundaşları tərəfindən ən yaxşı hədiyyə idi. Bu fədakar müdafiəçi həyatının düz yarısını "Qarabağ"-da keçirmiş, 2006-cı ildən bugünədək, yəni, 17 il ərzində etibarlı oyunu ilə komandaya böyük fayda vermişdir. Azərbaycan Premyer Liqasında növbəti qələbədən sonra Avropa Liqası qrup mərhələsinin ikinci turunda da uğurlu nəticə çox yerinə düşər, Medvedevə hədsiz sevinc gətirər.

İsveçdə maraqlı mübarizə vəd edən "Hekken"–"Qarabağ" görüşünü Bakı vaxtı ilə saat 23-dən etibarən izləyəcəyik. Oyunu avstriyalı hakimlər briqadası idarə edəcək. Qarşıda "Qarabağ"ın, Azərbaycan futbolunun bütün pərəstişkarlarını həyəcan dolu gərgin mübarizə gözləyir.

Bu gün qrupumuzda digər oyunun isə Norveçdə keçiriləcəyini də xatırladaq. Orada "Molde" futbolçuları "Bayer"i qəbul edəcəklər.

***Oqtay BAYRAMOV,***
***Əməkdar jurnalist***

Xalq qəzeti
XQ
veb-sayt: www.xalqqazeti.az
№ 216 (30332) 5 oktyabr 2023-cü il, cümə axşamı

Kino

# “100 addım” Səmərqənd qalibi olub



**“İpək Yolunun mirvarisi” XV Daşkənd Beynəlxalq kinofestivalı Səmərqənd şəhərindəki “Silk Road” turizm mərkəzində başa çatıb. Festivala dünyanın 52 ölkəsindən, o cümlədən Qazaxıstandan, Azərbaycandan 500-dən çox kinematoqrafçı, tanınmış aktyor və aktrisa, rejissor, operator qatılıb. Azərbaycanı bu tədbirdə Mədəniyyət nazirinin müşaviri Orxan Fikrətoğlunun rəhbərliyi ilə nümayəndə heyəti təmsil edib.**

Festival çərçivəsində 200-dən çox müxtəlif tədbir, o cümlədən 60-dan artıq ustad dərsi, yaradıcılıq görüşü keçirilib. Kino bayramında 60 bədii, sənədli və qısametrajlı film göstərilib.

Festival çərçivəsində gənc rejissorların “5 gün ərzində kino” Beynəlxalq müsabiqəsinə də yekun vurulub. Gənc Azərbaycan rejissoru Şirin Əhmədovun “100 addım” qısametrajlı filmi bu nominasiyada birinci mükafata layiq görülüb. Rusiyadan gələn rejissor ikinci, Qırğızıstan təmsilçisi üçüncü mükafatı alıb.

Ənənəyə uyğun olaraq müsabiqə iştirakçıları Səmərqənd, Buxara, Xarəzm, Fərqanə və Daşkəndin tarixi məkanlarında çəkilişlər aparıblar.

***Qulu KƏNGƏRLİ,***
***XQ-nin xüsusi müxbiri***
**Səmərqənd**

Elm




# Kimyaçı Nobel mükafatçıları

**2023-cü il üzrə kimya sahəsində Nobel mükafatına layiq görülən alimlərin adları açıqlanıb.**

Nobel Komitəsi oktyabrın 4-də Massaçusets Texnologiya İnstitutundan (ABŞ) Munqi Bavendinin, Kolumbiya Universitetindən (ABŞ) Luis Bryusun və rusiyalı alim Aleksey Yekimovun 2023-cü il üzrə kimya sahəsində Nobel mükafatına layiq görüldüklərini elan edib.

Onlar bu mükafata “kvant nöqtələrinin kəşfi və sintezi”nə görə layiq görülüblər. Xatırladaq ki, bundan əvvəl fizika və fiziologiya və tibb sahələrində builki Nobel mükafatçılarının adları açıqlanmışdır.

***ƏFSANƏ***
***XQ***

İdman xəbərləri

## Dünya çempionatı: Cüdoçumuz qızıl medal qazanıb




**Azərbaycanın gənc cüdoçusu Nizami İmranov (60 kq ) Portuqaliyanın Odivelas şəhərində keçirilən dünya çempionatında gümüş medal qazanıb.**

Finala qədər bütün rəqiblərini məğlub edən tatami ustası həlledici mərhələdə Yaponiya təmsilçisi Yamato Fukudaya uduzduğu üçün ikinci yerlə kifayətlənib.

Qeyd edək ki, dünən mübarizəyə qoşulmuş komandamızın digər üzvləri Aydın Rzayev (66 kq), Könül Əliyeva (48 kq), Aydan Vəliyeva və Xədicə Qədəşova (52 kq) yarışda medal qazana bilməyiblər.

Dünya çempionatı oktyabrın 7-dək davam edəcək.

## “Qəbələ” UEFA Gənclər Liqasına heç-heçə ilə başlayıb

**“Qəbələ”nin 19 yaşadək futbolçulardan ibarət komandası UEFA Gənclər Liqasında ilk oyununu keçirib.**

“Qırmızı-qaralar” birinci mərhələdə Macarıstanın “Puşkaş Akademiya” klubu ilə üz-üzə gəlib.

Qəbələ şəhər stadionunda keçirilən yarışda komandamızın heyətində 8-ci dəqiqədə Şahin Şahniyarov hesabı açıb. 36-cı dəqiqədə isə penaltini dəqiq yerinə yetirən qonaq komandanın müdafiəçisi Adam Umathum tarazlığı bərpa edib.

Beləliklə, qarşılaşma 1:1 hesabı ilə başa çatıb.

Komandalar arasında cavab oyunu oktyabrın 25-də Macarıstandakı “Panço Arena”da keçiriləcək.

## Avropa kubokunda “Sabah”ın növbəti qələbəsi



***“Sabah” basketbol klubu FIBA Avropa Kubokunda növbəti qələbəsini qazanıb.***

İlk turda Niderland təmsilçisi “Donar”ı 75:72 hesabı ilə məğlub edən Boban Mitevin yetirmələri bu dəfə Şimali Makedoniyada yerli “Rabotniçki” ilə üz-üzə gəliblər. Gərgin keçən görüşdə təmsilçimiz 83:81 hesablı əzmkar qələbə qazanıb.

Qrupun digər görüşündə Rumıniya “Rapid”i “Donar”a qalib gəlib – 69:65.

Azərbaycan çempionu qrupdakı son matçında Rumıniyanın “Rapid” kollektivi ilə qarşılaşacaq. Görüş oktyabrın 5-də olacaq.

***Leyla SABİRQIZI***
***XQ***

Sosial şəbəkələrdən seçmələr

## Yaxşılıq, yenə də yaxşılıq!



**Yaxşılıqla pisliyin, xeyirlə şərin mübarizəsi barədə Ulu Qorqud dədədən, dahi şair Nizamidən tutmuş çağdaş dövrümüzədək böyük alim və mütəfəkkirlər dəyərli fikirlər söyləyiblər. Hər biri bildirib ki, insanlar gücləri çatdıqca yaxşılıq etməli, pislik və bəd əməllərdən çəkinməlidirlər.**

Dünən “Instagram”da bu mövzuda çox maraqlı altımisralıq bir şeir dinlədim. Çox təsirli idi. Əminəm ki, hörmətli oxucular da oradakı mətləblərdən məmnun qalacaqlar.

*Bu dünyada nə bir qul, nə bir şah qalacaq,*
*Bu dünyada bizdən ancaq, savabla günah qalacaq.*
*Xəbərin olmaz özündən, doğulduq bir “ol” sözündən,*
*Ayrılıb göyün üzündən, neçə-neçə ah qalacaq.*
*Əzyayıl bizi güdəcək, nə vaxtsa əldə edəcək.*
*Gedəcək, hamı gedəcək, yaxşılıq, vallah, qalacaq!*

Düşünürəm ki, əlavə şərhə ehtiyac yoxdur. Hər an, hər gün yaxşılıq etmək, kiminsə əlindən tutmaq, kiməsə xoş söz söyləmək hər birimizin həyat və düşüncə tərzinə çevrilməlidir.

***Təqdim etdi:***
***M.HACIXANLI***
***XQ***

Təbiət

## Uşaqlara ayı sürprizi

**Rusiyanın Primorsk vilayətinin Lesozavodsk şəhərində yerli sakinlər uşaq meydançasında ayı ilə qarşılaşaraq onu lentə alıblar. Videonu yerli “Telegram” kanalı paylaşıb.**



Kadrlarda ayının uşaq meydançasında gəzdiyi görünür. Heyvanı gördükləri zaman videonu çəkən iki gənc emosiyalarını saxlaya bilməyib “Həqiqətən, bu zarafat deyil” sözləri ilə meydançanı tərk ediblər. Onlardan biri isə “Bəlkə, bu ayı paltarı geyinmiş adamdır?” sualını verir və video sona çatır.

Qeyd edək ki, digər “Telegram” kanalının verdiyi məlumata görə isə, ayını sonuncu dəfə şəhərin kənarında yaxın Dzerjinski küçəsində görüblər.

***S. FİDAN***
***XQ***

Texnologiya yenilikləri



## Qatlanan yeni smartfon

**“OPPO” şirkəti özünün qatlana bilən qapaqlı smartfonu “OPPO Find N3 Flip”-in qlobal versiyasının təqdimatına hazırlaşır. Bu barədə şirkətdən mediaya açıqlama verilib.**

Qeyd etmək lazımdır ki, sözügedən smartfon avqust ayının sonunda Çində təqdim olunmuşdu. İndi isə “OPPO”-nun Hindistan üzrə şöbəsi smartfonun qlobal versiyasının ilk tizer fotosunu təqdim edib.

Məlumatda həmçinin bildirilir ki, “OPPO Find N3 Flip”in qlobal versiyası bu ayın ortasında təqdim ediləcək.

***SƏADƏT***
***XQ***

Hadisə

## Batan qadın xilas edilib



**Fövqəladə Hallar Nazirliyinin (FHN) “112” qaynar telefon xəttinə Dənizkənarı Milli Park ərazisində 1 nəfərin dənizdə batma təhlükəsində olması barədə məlumat daxil olub.**

Nazirlikdən bildirilib ki, məlumatla əlaqədar dərhal hadisə yerinə FHN-in Kiçikhəcmli Gəmilərə Nəzarət və Sularda Xilasetmə Dövlət Xidmətinin “Bakı-bulvarı” dalğıc-axtarış qrupu cəlb edilib.

Həyata keçirilən operativ xilasetmə əməliyyatı sayəsində dənizdə batma təhlükəsində olan vətəndaş dalğıclar tərəfindən xilas edilərək, ilkin yardım göstərilib və aidiyyəti üzrə təhvil verilib.

***AYTƏN***
***XQ***

## ALLAH RƏHMƏT ELƏSİN

Azərbaycan Respublikası Prezidentinin köməkçisi, şöbə müdiri Şahmar Mövsümov Azərbaycan Respublikasının Dövlət Neft Şirkətinin birinci vitse-prezidenti

**XOŞBƏXT YUSİFZADƏNİN**

vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

---

“Azərbaycan Dəmir Yolları” Qapalı Səhmdar Cəmiyyətinin rəhbərliyi və kollektivi Azərbaycan Respublikasının Dövlət Neft Şirkətinin birinci vitse-prezidenti

**XOŞBƏXT YUSİFZADƏNİN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

---

Mehman Əkbərov və İsmayıl Hüseynov Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin birinci vitse-prezidenti, akademik

**XOŞBƏXT YUSİFZADƏNİN**

vəfatından kədərləndiklərini bildirir, mərhumun ailəsinə və yaxınlarına dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi Geologiya və Geofizika İnstitutunun baş direktoru, akademik Akif Əlizadə və institutun kollektivi Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin birinci vitse-prezidenti, akademik

**XOŞBƏXT YUSİFZADƏNİN**

vəfatından kədərləndiklərini bildirir, mərhumun ailəsinə və yaxınlarına dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Dövlət İqtisad Universitetinin maliyyə və audit kafedrasının müdiri, professor Əvəz Ələkbərov Azərbaycan Respublikası Prezidenti Administrasiyasının sabiq şöbə müdiri Mayıl Rəhimova həyat yoldaşı

**SƏYARƏ XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Sağlamlıq

## Kələmi kişi yesin, yoxsa qadın?

**Qadın və kişi orqanizminin quruluşu müxtəlif olduğundan onların rasionuna yanaşma da müxtəlifdir. Bunu Avstraliya dietoloqları sübut ediblər.**



Onlar 1998-ci ildə 1000 qadının iştirakı ilə qlobal araşdırmaya başlayıblar. Bütün bu müddət ərzində mütəxəssislər qadınların rasionunu təhlil ediblər. Alimləri, əsasən, tərəvəzlərin istehlakı maraqlandırıb.

Araşdırma göstərib ki, kələmin bütün növləri (ağ, qırmızı kələm, brüssel kələmi, kolrabi, gül kələm), həmçinin turp, şalğam kimi tərəvəzlər qadınların sağlamlığına müsbət təsir edir, onların arteriyalarını qoruyur, ömrünü uzadır. Bu tərəvəzləri tez-tez yeyən qadınlarda boyun arteriyalarının divarları orta hesabla 0,05 millimetr nazik olub. Çox cüzi görünən bu fərq qadınlarda vaxtından tez ölüm riskini 10–18 faiz azaldıb.

Alimlər bildiriblər ki, müalicənin təsiri olsun deyə, qadın hər gün bu tərəvəzlərdən, ən azı, 200 qram yeməlidir.

***Z.HÜSEYNLİ***
***XQ***




***Milli Hidrometeorologiya Xidmətindən verilən məlumata görə, sentyabrın 5-də Bakıda və Abşeron yarımadasında bəzi yerlərdə arabir yağış yağacağı gözlənilir. Yarımadanın bəzi yerlərində leysan xarakterli olacağı, şimşək çaxacağı ehtimalı var. Şərq tədricən kəsiləcəyi, gündüz əsasən yağmursuz keçəcəyi gözlənilir. Arabir güclənən şimal-qərb küləyi gündüz mülayimləşəcək.***

Havanın temperaturu gecə 14-17° isti, gündüz 18-23° isti olacaq. Atmosfer təzyiqi 764 mm civə sütunundan 768 mm civə sütununa yüksələcək. Nisbi rütubət gecə 65-85 faiz, gündüz 55-65 faiz olacaq.

***QƏZƏNFƏR***
***XQ***

BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75
Məsul katib: 493-61-02
Texniki şöbə: 493-59-64
Mühasibatlıq: 498-85-29
E-mail: xalqqazeti@gmail.com
info@xalqqazeti.az
+994(51) 280-16-44

“Xalq qəzeti”nin kompüter mərkəzində yığılıb və səhifələnib, “Azərbaycan” nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
*Şəhadətnamə 022273*

İNDEKS 0282
TİRAJ 4819
SİFARİŞ 2561
QİYMƏTİ 40 qəpik

Növbətçi redaktor
İmran BƏDİRXANLI

Çapa imzalanmışdır
00:00